AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 İYUL 2018-ci il CÜMƏ № 152 (6185) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfəri

## BMT baş katibinin siyasi məsələlər üzrə müavini ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edildi. Həmçinin ATƏT-in həmsədr ölkələrinin nazirlərinin iyulun 11-də keçirilən görüşü barədə məlumat verildi və ətraflı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**





## Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib

### *Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib*



**İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub.**



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Prezident İlham Əliyev Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmək üçün NATO-nun yeni mənzil-qərargahına gəldi.

Dövlətimizin başçısı burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviç ilə görüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviçi Türkiyənin NATO-dakı ofisinə çay süfrəsinə dəvət etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etdi.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV tədbirdə çıxış edərək dedi:**

- Cənab baş katib, xanımlar və cənablar.

Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb.

Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən "ASAN xidmət" Əfqanıstanda tətbiq olunur.

Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib.

Ötən il Azərbaycan "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi edib.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək.

* * *

İyulun 12-də Prezident İlham Əliyevin Belçikaya səfəri başa çatıb.

**AZƏRTAC**

## Monteneqronun Prezidenti Zati-aliləri cənab Milo Cukanoviçə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2018-ci il.**

## "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 11, maddə 387, N 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 226; 2001, N 11, maddə 683; 2002, N 8, maddə 463; 2004, N 2, maddə 57, N 5, maddə 321, N 8, maddə 598; 2005, N 4, maddə 278, N 6, maddə 464; 2006, N 3, maddə 225; 2007, N 11, maddələr 1049, 1053; 2010, N 4, maddə 276; 2012, N 5, maddə 414; 2014, N 11, maddə 1332; 2015, N 4, maddə 366, N 5, maddə 684) 8-ci maddəsinin üçüncü hissəsindən "feldyeger rabitəsi," sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1213-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1213-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2018-ci il.**

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.16-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.

**4.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 259, N 3, maddə 460, N 4, maddə 670, N 6, maddələr 1025, 1063, N 7, maddə 1272, N 9, maddə 1468, N 10, maddələr 1613, 1638; 2017, N 2, maddələr 176, 202, N 3, maddə 351, N 4, maddələr 530, 537, N 6, maddə 1101, N 7, maddələr 1314, 1346, N 8, maddə 1521, N 9, maddə 1637, N 10, maddələr 1788, 1798, N 11, maddələr 2003, 2027, N 12, maddələr 2290, 2320; 2018, N 1, maddə 36, N 2, maddələr 198, 201, N 3, maddələr 418, 428, 445; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 may tarixli 46 nömrəli, 10 may tarixli 50 və 58 nömrəli, 22 may tarixli 87 nömrəli, 11 iyun tarixli 135 nömrəli, 25 iyun tarixli 144 nömrəli fərmanları) 4.12-ci bəndinə "88.1.6," rəqəmlərindən sonra "150.16," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2018-ci il.**

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979; N 12, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646; Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1067-VQD nömrəli, 24 aprel tarixli 1073-VQD, 1075-VQD nömrəli, 1 may tarixli 1110-VQD və 1117-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 38.1-ci maddənin ikinci cümləsinə "qanunvericiliyin" sözündən sonra", habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarının" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 150.15-ci və 150.16-cı maddələr əlavə edilsin:

"150.15. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozulmasına görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 30 gün müddətində cəriməni qanunla müəyyən edilmiş əsaslar olmadan ödəməyən şəxsə onun ödənilməmiş hər növbəti gün üçün cərimə məbləğinin 1 faizi məbləğində dəbbə pulu hesablanır. Dəbbə pulu bütün gecikdirilmiş müddətə, lakin 2 aydan çox olmamaq şərti ilə tətbiq edilir.

150.16. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə onun Azərbaycan Respublikasına gəlməsi Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən qadağan edilir. Şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödədikdə onun Azərbaycan Respublikasına gəlməsi ilə bağlı qadağa dərhal götürülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1218-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1218-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

*3.1.* Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 46.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

*3.2.* həmin Məcəllənin 54.11-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.

**4.** "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 7, maddə 803; 2014, N 9, maddə 1050, N 11, maddələr 1382, 1413, N 12, maddə 1588; 2015, N 10, maddə 1121; 2016, N 6, maddələr 1020, 1044, N 11, maddə 1827) aşağıdakı dəyişikliklər edilsin:

*4.1.* 5.4-cü bəndə "54.11-ci maddəsinin birinci cümləsində," sözlərindən sonra "54.11-1-ci maddəsində," sözləri əlavə edilsin;

*4.2.* 5.6-cı bənddən "30.1-ci," sözləri çıxarılsın;

*4.3.* 5.11-ci bəndə "37.8-ci maddəsində (ikinci halda)," sözlərindən sonra "46.4-cü maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2018-ci il.**

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 7, maddə 797; 2014, N 11, maddələr 1351, 1357, N 12, maddə 1539; 2015, N 3, maddə 259, N 6, maddə 689, N 12, maddə 1436; 2016, N 2 (II kitab), maddə 214, N 6, maddələr 970, 988, 1008, N 7, maddə 1246, N 11, maddə 1794; 2017, N 7, maddə 1312, N 11, maddə 1963, N 12 (I kitab), maddələr 2218 və 2257; 2018, N 1, maddə 32, N 3, maddə 386) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 16-cı maddə üzrə:

*1.1.* 16.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.8. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə;";

*1.2.* 16.2-ci maddədə "16.1.6 - 16.1.8-ci" sözləri "16.1.6-cı və 16.1.7-ci" sözləri ilə əvəz edilsin;

*1.3.* aşağıdakı məzmunda 16.4-cü maddə əlavə edilsin:

"16.4. Bu Məcəllənin 16.1.8-ci maddəsində nəzərdə tutulmuş şəxslər cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödədikdə onların Azərbaycan Respublikasına gəlməsi ilə bağlı qadağa dərhal götürülür.".

**2.** 21.1-ci və 21.2-ci maddələrdə "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

**3.** 30.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmiləşdirilmiş dəvətnaməsi" sözləri "vəsatəti" sözü ilə əvəz edilsin.

**4.** 36-cı maddə üzrə:

*4.1.* 36.1.6-cı maddədə ", dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (qeyri-dövlət təşkilatları üçün), dəvətin səbəbini təsdiqləyən sənəd (tranzit, turizm, rəsmi və şəxsi səfər vizaları üçün bu sənəd tələb olunmur)" sözləri "(tranzit və turizm vizaları üçün bu sənəd tələb olunmur)" sözləri ilə əvəz edilsin;

*4.2.* aşağıdakı məzmunda 36.1.6-1-ci və 36.1.6-2-ci maddələr əlavə edilsin:

"36.1.6-1. Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəf qeyri-dövlət təşkilatı olduğu halda həmin qurumun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti;

36.1.6-2. dəvətin səbəbini təsdiq edən sənəd (tranzit, turizm, rəsmi və şəxsi səfər vizaları üçün bu sənəd tələb olunmur);".

**5.** Aşağıdakı məzmunda 46.4-cü maddə əlavə edilsin:

"46.4. Bu Məcəllənin 54.11-1-ci maddəsində nəzərdə tutulan müraciətə bu Məcəllənin 46.1.1-ci maddəsində göstərilən ərizə-anket əlavə olunmaqla daimi yaşama icazəsinin alınması (müddətinin uzadılması) üçün təqdim edilmiş sənədlər əsasında baxılır. Belə müraciətə baxılan zaman müvafiq icra hakimiyyəti orqanından yenidən rəy alınması tələb olunmur.".

**6.** 50.0.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.0.13-cü maddə əlavə edilsin:

"50.0.13. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə.".

**7.** Aşağıdakı məzmunda 54.11-1-ci maddə əlavə edilsin:

54.11-1. Daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtinaya səbəb olan hal aradan qalxmazsa və bu hal müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina üçün əsas deyildirsə, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması (müddətinin uzadılması) ilə bağlı bu Məcəllənin 54.11-ci maddəsində nəzərdə tutulan müddətdə müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər.".

**8.** 55-ci maddə üzrə:

*8.1.* 55.0.8-ci maddədə "etibarən hər" sözləri "hesablanmaqla istənilən" sözləri ilə əvəz edilsin;

*8.2.* 55.0.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 55.0.14-cü maddə əlavə edilsin:

"55.0.14. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə.".

**9.** 79.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 79.1.1-ci maddəsində nəzərdə tutulmuş sənədlərin ləğv edilməsinə səbəb olmuş əsaslar aradan qalxdıqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə gəlməsinə qoyulmuş məhdudiyyət götürülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## Dövlət Feldyeger Xidmətinin Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyinə verilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidmətinin şəxsi heyətinin xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuş (vəfat etmiş) və ya xidmətinin davam etdirilməsinə imkan verməyən xəsarət (yaralanma, travma, kontuziya) almış əməkdaşlarına və ya onların ailə üzvlərinə verilən birdəfəlik müavinətin ödənilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 85 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 7, maddə 524; 2008, N 3, maddə 176, N 4, maddə 257, N 11, maddə 965) ləğv edilsin.

2. "Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 iyul tarixli 91 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 7, maddə 530) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2018-ci il.**

# Dənizkənarı Milli Parkda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib





**İyulun 12-də İDEA İctimai Birliyi, BMT-nin İctimai İnformasiya Departamentinin birgə təşkilatçılığı və Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Dənizkənarı Milli Parkda "BMT-2030" Dayanıqlı İnkişaf Məqsədlərinin əks olunduğu stendlərin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai, rezident əlaqələndiricinin müavini Alessandro Frakasetti, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova və 100-ə qədər gənc fəal iştirak edib.

Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov bildirib ki, hazırda dünyada bəzi ölkələr və xalqlar müxtəlif əziyyətlərə məhkum olublar, iqtisadi cəhətdən bir çox dövlətlər geridə qalıblar, müxtəlif ölkələrdə insanlar aclıqdan, yoxsulluqdan əziyyət çəkirlər. Bir sıra yerlərdə xəstəliklər geniş yayılıb və bu da insanlar üçün məhdudiyyətlərə səbəb olur. Bəzi ölkələrdə təhlükəsizlik məsələləri ilə əlaqədar ciddi problemlər mövcuddur. Qaçqınlar problemi hazırda dünyanı narahat edən məsələlərdən birinə çevrilib. Beləliklə də BMT dünyamızın simasının dəyişdirilməsi, iqtisadi gerilikdən əziyyət çəkən dövlətlərin iqtisadi cəhətdən inkişaf etdirilməsi, yoxsulluqdan əziyyət çəkənlərin bundan xilas olması, xəstəliklərdən əziyyət çəkən ölkələrdə xəstəliklərin kökünün kəsilməsi və bütövlükdə dünyada iqtisadi inkişafın, ədalətin təmin edilməsi məqsədlərini 2030-cu ilədək hədəfə götürən 17 məqsəd və 169 hədəf müəyyənləşdirib. Azərbaycan da daxil olmaqla 2015-ci il sentyabrın 25-də BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini" qəbul edib. Prezidentin Sərəncamı ilə Azərbaycanda bu layihənin həyata keçirilməsi məqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Hazırda BMT-nin 18 rezident və qeyri-rezident agentliyi Hökumətlə yaxından əməkdaşlığı davam etdirir və 17 Dayanıqlı İnkişaf Məqsədinə nailolma istiqamətində Azərbaycanın səylərini dəstəkləyir.



"Bizim istəyimiz ondan ibarətdir ki, həm dövlət, həm ictimai qurumlar, həm də vətəndaşlar bu məqsədlərin həyata keçirilməsinə cəlb edilsinlər", - deyən Ə.Əhmədov bildirib ki, buna görə də təşviqat kampaniyası çox mühüm əhəmiyyət kəsb edir. Biz istəyirik ki, Azərbaycanın hər bir vətəndaşı dünyanın dəyişdirilməsi məqsədindən ibarət olan Dayanıqlı İnkişaf Məqsədləri və hədəflərinin mahiyyətini dərk etsinlər. Qarşımızda duran vəzifələrin nədən ibarət olduğunu anlasın və öz imkanları çərçivəsində dövlətin və hökumətin bu istiqamətdə həyata keçirdiyi bütün vəzifələri dəstəkləməyə hazır olsunlar. Vətəndaşlarımız bilməlidirlər ki, bu məqsədlər nəyə xidmət edir, qarşıya qoyulan hədəflər nədən ibarətdir və bunların həyata keçirilməsi üçün onların üzərinə düşən vəzifələr nələrdir? Bu, çox maraqlı bir ideyadır. Dənizkənarı Milli Parkda gəzən insanlar Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin nədən ibarət olduğunu biləcəklər. Məqsədin bütün insanların həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət olduğunu dərk edən insanlar təbii ki, bu ideyanın reallığa çevrilməsinə öz dəstəyini verəcəklər.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və hədəflər barədə danışan Qulam İshaqzai isə qeyd edib ki, Bakı sakinlərinin və turistlərin ən çox ziyarət etdiyi Dənizkənarı Milli Parkda belə stendlərin quraşdırılmasında məqsəd Azərbaycan ictimaiyyətinin və sıravi insanların BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri barədə daha geniş məlumat əldə etməsidir. O bildirib ki, stendlər BMT-nin Azərbaycandakı nümayəndəliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və İDEA İctimai Birliyinin təşəbbüsü ilə quraşdırılıb. Stendlərdə 17 ümumbəşəri dayanıqlı inkişaf məqsədi əks olunub.

Qeyd edək ki, Dənizkənarı Milli Parkda təşkil olunmuş mərasim 2018-ci ildə İDEA İctimai Birliyinin BMT ilə birgə Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda təşviq edilməsinə, xüsusən bu mövzuda ictimai maarifləndirilmənin artırılmasına yönəlmiş çoxsaylı tədbirlərdən biridir.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər və müdafiə nazirləri ABŞ-dan olan həmkarları ilə görüşüblər

**İyulun 12-də NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və müdafiə naziri Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının dövlət katibi Mayk Pompeo və müdafiə naziri Ceyms Mattis ilə görüşüblər.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Uess Mitçel, Milli Təhlükəsizlik Şurasında baş direktor Fiona Hill, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və NATO yanında nümayəndəliyinin başçısı vəzifəsini icra edən Qaya Məmmədov iştirak ediblər.

Tərəflər Azərbaycan və ABŞ arasında tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə ediblər. Nazir Elmar Məmmədyarov NATO-nun Brüssel Sammitinin Yekun Kommunikesində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə təkrar ifadə olunan dəstəyin vacibliyini diqqətə çatdırıb.

Söhbət əsnasında regional məsələlərə dair fikir mübadiləsi aparılıb və ABŞ tərəfi NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyasına və terrorizmə qarşı mübarizədə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

Elmar Məmmədyarov həmkarına iyulun 11-də ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Brüsseldə Ermənistan xarici işlər naziri ilə keçirdiyi görüş barədə məlumat verib.

Xarici işlər naziri Elmar Məmmədyarov və müdafiə naziri Zakir Həsənov ABŞ-dan olan həmkarlarını Azərbaycana səfərə dəvət ediblər və onlar dəvəti məmnuniyyətlə qəbul ediblər.

**AZƏRTAC**

# Brüsseldə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunub



**İyulun 11-də Brüsseldə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə ilk görüşü keçirilib. Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edib. Görüş 4 saata yaxın müddətdə davam edib. Bundan əvvəl xarici işlər naziri Elmar Məmmədyarov ilə həmsədrlər arasında ayrıca görüş keçirilib.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev AZƏRTAC-a bildirib ki, görüş əsnasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi ətraflı müzakirə olunub və mövcud danışıqlar formatının davam etdirilməsi qeyd edilib. Həmçinin danışıqlar prosesinin irəli aparılması üçün növbəti addımlara və həmsədrlərinin fəaliyyət planlarına dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.2.6-cı maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin sorğusuna baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyulun 27-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

# Cəbhəyanı ərazilərdə UNİCEF və BAMF-ın birgə layihəsinin - AYAP gənclər proqramının monitorinqi olub





**UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev cəbhəyanı ərazilərdə - Tərtər, Bərdə və Goranboy rayonlarında olublar. Səfərin məqsədi UNİCEF və BAMF-ın birgə layihəsinin - AYAP gənclər proqramının monitorinqi olub. Səfərdə Azərbaycanın cəbhəyanı ərazilərində yaşayan gənclərin həyatı barədə öyrənməyə maraq göstərən Zimbabve və Mozambikdən olan xarici tələbələr də iştirak ediblər. Bu barədə AZƏRTAC-a BAMF-dan məlumat verilib.**

Qonaqlar əvvəlcə Bərdə rayonunda olublar. Rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev Bərdədə uşaqlar və gənclərlə bağlı layihələrin həyata keçirilməsində UNİCEF və BAMF-ın fəaliyyətinin əhəmiyyətini qeyd edib.

Edvard Karvardin Azərbaycanın rayonlarında gənclərin inkişafında bir çox insanların, eləcə də gənclərin özlərinin maraqlı olmasını müşahidə etməkdən məmnun olduğunu bildirib. Onun sözlərinə görə, qərarların qəbul edilməsində gənclərin iştirakı və onların fikirlərinin nəzərə alınması çox vacibdir.

Səfər çərçivəsində bu təşəbbüslə bağlı təəssüratlarını bölüşən AYAP-ın gənclər proqramının əvvəlki və indiki üzvləri ilə görüş keçirilib.

Tərtər rayonuna səfər zamanı əvvəlcə icra hakimiyyətinin başçısı Müstəqim Məmmədovla görüş olub. Sonra monitorinq qrupu uşaqlarla görüşmək üçün Gənclər və İdman Mərkəzində yerləşən 3D kinoteatrına gediblər. Həmin kinoteatrın açılışı bu yaxınlarda AYAP çərçivəsində həyata keçirilib.

Edvard Karvardin rayonun uşaqları ilə söhbət edib.

Goranboy rayonuna səfər zamanı AYAP fəaliyyətinin bir hissəsi kimi Səfikürd kəndində idman stadionunun açılışı olub. Açılış Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə və "İdman hər kəs üçün" gənclər idman festivalına həsr edilib.

Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev deyib ki, bu kimi təşəbbüslər Goranboyun digər yaşayış məntəqələrində də dəstəklənəcək.

Edvard Karvardin stadionun açılışına dəvət edilməsinin onun üçün böyük şərəf olduğunu deyib. "İdmanın üstünlüyü fərqli insanları birləşdirməsindədir. İdman qızlara, oğlanlara, əlilliyi olan gənclərə qoşulma imkanı verir. Burada Goranboy rayonunun müxtəlif kəndlərində yaşayan fərqli yaşlarda uşaqları görməyimə şadam", - deyə o əlavə edib.

Umud Mirzəyev Azərbaycanın ən qədim kəndlərindən biri olan Səfikürdün 300 ildən çox tarixə malik olduğunu qeyd edib. O deyib ki, Azərbaycan ziyalılarının bir çox nümayəndələri, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin təsisçilərindən biri Səfikürddə doğulub.

"İdman yalnız sağlamlıq baxımından faydalı deyil. İdman ünsiyyət qabiliyyətini inkişaf etdirməyə, nizam-intizama və sağlam rəqabətə kömək edir", - deyə o əlavə edib.

İdman strukturlarının tikintisi ideyasının müəllifi, AYAP-ın keçmiş üzvü Fuad Məmmədov cinsindən, fiziki imkanlarından və maddi vəziyyətindən asılı olmayaraq bütün gənclərin idmanla məşğul ola bilməsi üçün stadion açmaq ideyasının necə yarandığını auditoriya ilə bölüşüb.

İdman festivalı qadın və kişi komandalarının voleybol matçları, güləş, qısa və uzun məsafələrə qaçışlar ilə davam edib.

Sonra yüzdən çox uşaq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə və BMT-nin davamlı inkişafının 17 məqsədinə həsr olunmuş fləşmob keçiriblər.

Sonda ən fəal iştirakçılara sertifikatlar, medallar, kuboklar və toplar verilib.

**AZƏRTAC**

# NATO-nun Zirvə toplantısının yekun kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək ifadə olunub

**NATO üzv dövlətləri Brüsseldə keçirilən Zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb.

Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.

Bəyanatda qeyd edilir ki, 2006-cı ildən başlayaraq NATO üzv dövlətləri Zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikası Avropa İttifaqı və NATO üzv dövlətləri tərəfindən müvafiq olaraq Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədi və NATO-nun Brüssel Zirvə toplantısının kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını təqdir edir.

Beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstək beynəlxalq münasibətlərin əsasını təşkil edir, davamlı sülh və təhlükəsizliyi şərtləndirən vacib amildir.

**AZƏRTAC**

*Hikmət Hacıyev:*

# Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyəti aldatmağa çalışır

**Ermənistanın baş nazirinin Brüsseldə keçirdiyi görüşlərdə Ermənistan-Azərbaycan sərhədi və qoşunların təmas xəttində guya gərginliyin artması barədə verdiyi məlumatlar yalan və dezinformasiyadır.**

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldəki görüşlərində səsləndirdiyi fikirləri şərh edərkən bildirib.

Hikmət Hacıyev deyib ki, real operativ vəziyyət və mövcud faktlar bunun tamamilə əksini sübut edir. Bu yolla Ermənistan rəhbərliyi beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Amma beynəlxalq ictimaiyyət real vəziyyət barədə dolğun və düzgün məlumata malikdir. Ermənistanın baş nazirinin bu kimi fəaliyyəti yalnız daxili istehlaka yönəlib və qeyri-legitim hakimiyyətini qorumaq məqsədi daşıyır. Eyforiya dövrü artıq başa çatmaqdadır. Paşinyan Ermənistanla heç bir əlaqəsi olmayan demokratiya və insan hüquqlarından danışaraq özünün demokratiya deyil, dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsinə bəraət qazandırmağa çalışır. Ermənistanın rəhbərliyinə artıq ayılmağı və reallığı anlamağı tövsiyə edərdik. Reallıq odur ki, Ermənistanın üzləşdiyi problemlərin kökündə qonşulara münasibətdə yürütdüyü sui-qəsd xarakterli siyasət durur. Bu siyasət Ermənistanın müstəqilliyi və suverenliyini viran edir və Ermənistanı yoxsulluq və qeyri-sabitlik uçurumuna aparır.

**AZƏRTAC**

*Məhəmməd Rastad:*

# Azərbaycan xəzəryanı ölkələr arasında ən müasir liman infrastrukturuna malik olan dövlətdir

**İran iqtisadiyyatında həyata keçirilən idxal-ixrac əməliyyatlarında Azərbaycan tranzit ölkə kimi mühüm əhəmiyyət daşıyır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Sari şəhərində keçirilən "Xəzər dənizi vasitəsilə ixracatın inkişafı" adlı Beynəlxalq konfransda çıxış edən yol və şəhərsalma nazirinin müavini, İran dənizçilik və limanlar təşkilatının direktoru Məhəmməd Rastad deyib. Onun sözlərinə görə Azərbaycan Xəzəryanı ölkələr arasında ən müasir liman infrastrukturuna malik olan dövlətdir.

M.Rastad nəzərə çatdırıb ki, İran Gürcüstanla həyata keçirdiyi ixrac-idxal əməliyyatlarında Azərbaycan önəmli rol oynayır. İran malları Azərbaycan üzərindən Gürcüstana ixrac edilir və bu hər iki dövlətin maraqlarına uyğundur. Dövlətlər arasındakı iqtisadi əlaqələrin inkişafında nəqliyyatın mühüm yer tutduğunu qeyd edən M.Rastad Azərbaycanın nəqliyyat sahəsində probleminin olmadığını bildirib.

Xatırladaq ki, beynəlxalq konfrans çərçivəsində Xəzəryanı ölkələrin dəniz vasitəsi ilə iqtisadi əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilir. Konfrans Xəzəryanı ölkələrdə dəniz vasitəsilə ixrac-idxal əməliyyatlarının genişlənməsi imkanlarının və problemlərin araşdırılması məqsədilə keçirilir.

**AZƏRTAC**

# Müstəqil məhkəmə-hüquq sisteminin formalaşdırılması ulu öndərin adı ilə bağlıdır

**Hər bir xalqın tarixi müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində öz təcəssümünü tapmışdır. Azərbaycan kimi özünəməxsus dəyərləri, mentaliteti, dövlətçilik ənənələri olan ölkələrdə şəxsiyyət və lider amili hər zaman aktualdır. Bu prizmadan baxdıqda əminliklə demək olar ki, xalqımızın əsrlər boyu formalaşan güclü, qətiyyətli, istiqamətverici milli lider idealı məhz dünya şöhrətli ictimai-siyasi xadim, ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyətində həqiqətə çevrilib. Ulu öndər Azərbaycan tarixində təkcə milli müstəqillik ideyasını praktik surətdə gerçəkləşdirmiş lider kimi yox, həm də yaratdığı dövlətin möhkəmliyini təmin edən, onun hərtərəfli inkişafı üçün iqtisadi, siyasi və hüquqi zəmin hazırlayan böyük strateq, müdrik rəhbər kimi daim xalqın qəlbində yaşayır.**

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu sahəsində və onun tərkib hissəsi olan məhkəmə-hüquq islahatlarında ümummilli liderimiz Heydər Əliyevin rolundan danışılanda bəzən bu islahatların 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiya ilə başlanılması vurğulanır. Halbuki, həmin islahatlar çox-çox əvvəl, hələ Heydər Əliyevin Sovet Azərbaycanına 1969-1982-ci illərdə rəhbərlik etdiyi vaxtlarda başlamışdır. Onun həmin dövrdə atdığı uzaqgörən və radikal addımların xalqımızın taleyində köklü dəyişikliklərə səbəb olması danılmazdır.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə respublikanın 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu alması təsdiq olundu. Bu məsələ ona görə xüsusi olaraq vurğulanmalıdır ki, o zaman İttifaqın iri respublikaları öz dillərini dövlət dili statusuna qaldıra bilməmişdi.

1981-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə respublikada "Məhkəmə Quruluşu haqqında" yeni qanunun qəbul edilməsi məhkəmə orqanlarının inkişafı və möhkəmlənməsi üçün şərait yaratmışdır. Bu qanun 1960-cı ildə qəbul edilmiş qanuna nisbətən geniş və mütərəqqi sənəd olmaqla Azərbaycan SSR Ali Məhkəməsindən, Naxçıvan MSSR Ali Məhkəməsindən, Bakı Şəhər Məhkəməsindən, DQMV-nin Vilayət Məhkəməsindən, rayon (şəhər) xalq məhkəmələrindən ibarət məhkəmə sistemini formalaşdırmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra həyatımızın bütün sahələrində olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsi, tamamilə yeni hüquq və məhkəmə sisteminin formalaşması, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması günün tələbinə uyğun meydana çıxdı. Ancaq müstəqilliyimizin ilk dövründə Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi üzündən ölkədə heç bir islahat aparılmadı, sovet dövründən miras qalmış əski Konstitusiya saxlanıldı. Bu istiqamətdə sistemli işlərə 1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə respublika rəhbərliyinə yenidən qayıtdıqdan sonra başlanmışdır.

Müstəqil dövlətin həyatında Konstitusiyanın oynadığı rolu yüksək qiymətləndirən Heydər Əliyev səlahiyyətli tərkibdə Konstitusiya Komissiyası yaratdı və layihə ulu öndərin rəhbərliyi ilə geniş ictimaiyyətin müzakirəsinə verildi. 12 noyabr 1995-ci ildə Azərbaycanda çoxpartiyalı əsaslarla parlament seçkiləri keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın Əsas Qanunu - Konstitusiyası qəbul olundu. Əsas Qanunda Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat verilməsi; vətəndaş cəmiyyətinin qurulması; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən dünyəvi-hüquqi dövlətin bərqərar olunması, ədalətli sosial nizamın yaradılması və ən əsası, hakimiyyətin üç müstəqil qola — qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi öz əksini tapmışdır. Qəbul edilmiş bu Konstitusiya köklü məhkəmə-hüquq islahatlarının aparılmasının da əsasını qoydu.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi məqsədilə 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquq İslahat Komissiyası, 1998-ci ildə isə dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış və 1997-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Məhkəmə və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyətinin müstəqil, yalnız qanun çərçivəsində fəaliyyət göstərməsinə imkan yaratdı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də Azərbaycan Konstitusiyasının aliliyini təmin edilməsinə yönəlmiş "Konstitusiya Məhkəməsi haqqında" qanunun qəbul edilməsi oldu. Konstitusiya Məhkəməsinin təşkil olunması isə hüquqi-demokratik dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan xalqının müasir tarixində mühüm bir hadisə sayılmalıdır. Komissiya tərəfindən hazırlanmış "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Notariat haqqında" və sairə qanunların qəbulu xüsusi əhəmiyyətə malikdir.

Ölkəmiz 1996-1997-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandumudur. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qanunvericilikdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixində Azərbaycan Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi və "Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" 1 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məhkəmələrin təşkil edilməsi, hakim vəzifələrinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyətləri dairəsində həyata keçirən məşvərətçi orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılmış və ölkə tarixində ilk dəfə olaraq hakim vəzifəsinə namizədin peşə hazırlığını, bilik səviyyəsini, hakim vəzifəsinə layiq olduğunu müəyyən etmək məqsədilə test üsulu ilə imtahan və müsahibə aparılması yolu ilə təyin edilməsi qərara alınmışdır. Təcrübədə sınanmış bu qaydaların nə dərəcədə effektiv olması özünü sübut etdi və 2000-ci ildə keçirilmiş test imtahanları zamanı hakim korpusunun 60 faizə qədər təzələnmişdir. Təkcə bu fakt seçkinin ədalətli, şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyinə əmin olmaq üçün kifayətdir.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk dövlət olmuşdur. Yüksək humanizm və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər bir təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yürüdən müstəqil Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmiş və ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna önəm verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə nüfuzlu tribunalardan böyük, diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.



Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir.

Siyasətdə və dövlət idarəçiliyində mütərəqqi ənənələrin, irs-varislik əlaqələrinin qorunub saxlanılması hər bir xalqın sabit və davamlı inkişafı baxımından vacibdir və böyük əhəmiyyət daşıyır. İrs-varislik əlaqəsi Azərbaycan xalqının milli düşüncə sistemində də möhkəm intişar tapmış, xalqımız tarix boyu inandığı, etibar etdiyi siyasəti ürəkdən dəstəkləyərək öz təminatlı gələcəyinə doğru inamla addımlamışdır. Ümummilli lider Heydər Əliyev bu mənada həm də böyük müdrikliklə müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi varis yetişdirmişdir. Böyük strateq 2003-cü ilin oktyabrında xalqa müraciətində demişdir: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.

Cənab İlham Əliyevin inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük şövqlə həyata keçirdiyi islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinə və mükəmməl iş təcrübəsinə dəlalət edir. Dövlət başçısı praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır. 2003-2018-ci illərdə respublikada elmi əsaslara söykənməklə həyata keçirilən siyasət sabit iqtisadi və siyasi sistemin yaradılması, sosial vəzifələrin həlli, əhalinin sosial rifah halının, alıcılıq qabiliyyətinin yüksədilməsinə, cəmiyyətdə ictimai konsensusun əldə edilməsinə yönəlmişdir. Qazanılan uğurlar Azərbaycanın davamlı surətdə demokratiya yolunda uğurla irəliləməsinə, dünya miqyasında nüfuzunun yüksəlməsinə, özünüifadəsinə geniş imkanlar yaratmışdır.

Ümumilikdə, hər addımda ulu öndər Heydər Əliyevin yüksək ideallarına sadiqlik nümayiş etdirən dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətin ali məqsədi Azərbaycanın hər bir vətəndaşı üçün layiqli və firavan həyat tərzinin təmin olunması, ölkədə azad və demokratik cəmiyyətin qurulmasıdır. Bütün bu proseslərdə Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Bu gün Azərbaycan xalqı İlham Əliyevi ölkədə baş verən intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq öz həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun əhəmiyyətini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

**Azər HÜSEYNOV,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

# ZAMANIN FÖVQÜNDƏ DAYANAN DAHİ ŞƏXSİYYƏT

**14 iyul 1969-cu il... Həmin tarix ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi nəticəsində respublikamızın hərtərəfli inkişaf mərhələsinin başlandığı gündür. Həm keçmiş SSRİ, həm də müstəqil Azərbaycan Respublikası dövründə xalqına sədaqətlə xidməti həyat idealına çevirmiş Heydər Əliyev əmək və ictimai fəaliyyətinin ilk dövrlərindən özünün şəxsi keyfiyyətləri ilə fərqlənmiş, ən ali rəhbərlik səviyyəsinə yüksəlmişdir. Bu gün Azərbaycan məhz ulu öndərin titanik əməyi sayəsində regionun qabaqcıl ölkəsi statusu qazanmış və beynəlxalq münasibətlər sisteminin mühüm aktoruna çevrilmişdir.**

1969-cu il Azərbaycanın ən yeni tarixinə dönüş ili kimi düşmüşdür. Ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il tarixli plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilmişdi. Həmin plenumda ulu öndər qarşıda duran mürəkkəb və çətin məsələlərin həlli, bir sıra ciddi problemlərin aradan qaldırılması üçün səylə işləyəcəyini, yüksək etimadı doğrultmağa çalışacağını vurğulamış, qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini qeyd etmişdi.

Bu, bir həqiqətdir ki, ümummilli liderin fəaliyyəti sayəsində 1970-1982-ci illər baş vermiş müsbət dəyişikliklərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir. Məhz həmin illərdə böyük ictimai-siyasi xadim Heydər Əliyevin təşəbbüsü ilə keçmiş SSRİ rəhbərliyi Azərbaycan iqtisadiyyatının hərtərəfli tərəqqisini və dinamik inkişafını nəzərdə tutan xüsusi qərarlar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti var idi. Bu gün əminliklə demək olar ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə - 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır. 1969-cu ilin 14 iyul tarixi xalqımızın yaddaşına əbədi yazılıb.

Türk dünyasının görkəmli elm adamı və ictimai xadimi, bütün türk xalqlarının misilsiz təəssübkeşi olan İhsan Doğramacı çıxışlarının birində qeyd etmişdi ki, Azərbaycan xalqı iyirminci əsrdəki milli qurtuluşunun tarixini əslində 1969-cu ilin yayından hesablamalıdır. Çünki həmin tarixdə siyasi hakimiyyətə gələn Heydər Əliyev sözün həqiqi mənasında böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə, misilsiz inkişafa nail olmuşdu. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilmişdi. Tarixçilərin fikrincə Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın hərtərəfli inkişafını təmin etmiş, ölkə yeni bir tərəqqi yoluna qədəm qoymuşdu. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın milli dövlətçiliyinin bərpasına gətirib çıxardı.

Xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi dahi, bənzərsiz şəxsiyyətlərdəndir. Müasir Azərbaycan dövlətinin bütöv bir qərinəsini əhatə edən tarixi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi, eləcə də mədəni həyatımızın bütün sahə və istiqamətlər üzrə və xalqımızın inkişafı istiqamətində gələcək fəaliyyətinin, atacağı addımların konturları aydın idi. Ulu öndərin rəhbərliyi illərində həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan İttifaqın tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan, daim inkişaf edən respublikaya çevrildi. Məhz Heydər Əliyevin böyük səyi və qətiyyəti sayəsində həmin dövrdə İttifaq hökuməti Azərbaycanda xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Xalqımız üçün böyük tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illərdə və daha sonrakı perspektivdə ölkəmizin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Həyata keçirilən qlobal miqyaslı işlər sayəsində 1976-1980-ci illərdə Azərbaycan artıq sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxmışdı. XX əsrin 70-80-ci illəri Azərbaycan tarixinə, sözün əsl mənasında, intibah dövrü kimi daxil olmuşdur.

Heydər Əliyevin 1982-ci ildə Siyasi Büronun üzvü seçilməsi və SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmasının milli qürur və iftixar hissi yaradan amil kimi mühüm rolunu da xüsusi vurğulamaq vacibdir. Xalqın liderinin onun hüdudlarından kənarda tanınması və etiraf olunması qədər milli düşüncəyə yüksək səviyyədə müsbət təsir göstərən digər amil təsəvvür etmək çətindir. Ümummilli lider Heydər Əliyevin dünyanın iki super dövlətindən birinin rəhbərlərindən olması həm də xalqımızın bəşəri miqyasda tanınması, onun gələcəyinə hesablanan gerçəkliyinin dərk olunması idi. Heydər Əliyevin XX əsrin son onilliklərində Azərbaycanın intibahı yolundakı xidmətləri, digər tərəfdən isə milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamış oldu.

Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır. Ulu öndərin respublikamıza rəhbərlik etdiyi 34 il ərzində xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətləri saymaqla qurtaran deyil. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Bu dahi insan Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Bunun üçün ilk növbədə ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olmaq lazım idi. Ümummilli liderimizin gərgin səyləri möhkəm sabitliyin yaradılmasına və Azərbaycanda normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu. XX əsrin sonu Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz lideri unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Ümummilli lider şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl, xalqın xilaskarı olub.

Heydər Əliyev hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik

dirçəlişi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu illərdə Heydər Əliyev rəhbəri olduğu Azərbaycanın bütün məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın etibarlı bünövrəsini yaratmışdır.

Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha malik olan Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə həmişə öz xalqının yanında olmuşdur. Azərbaycanın həqiqi müstəqilliyi, intibahı məhz Heydər Əliyevin çoxşaxəli fəaliyyəti ilə bağlıdır. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm", - deyib şərəfli bir missiya ilə meydana atılan Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Ulu öndərimiz həmişə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənib, arxalanıb. Tarix sübut etdi ki, dünya şöhrətli dövlət xadimi və mahir siyasətçi Heydər Əliyevin güvəndiyi, arxalandığı bu yenilməz qüvvə qarşıya çıxan neçə-neçə qorxunc təhlükəni sovuşdurmağa, keçilməz maneələri belə dəf etməyə həqiqətən də qadirdir. Məhz xalqın öz dahi lideri ilə birliyi, həmrəyliyi sayəsində müstəqilliyimiz əbədi prosesə çevrildi və ölkəmiz davamlı inkişaf yoluna çıxdı.

Ulu öndərimiz Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda hakimiyyətə gəldiyi və Azərbaycan KP MK-nın birinci katibi təyin olunduğu gün həyatımızın olduqca mühüm tarixi hadisəsi kimi yaddaşlarda əbədi qalıb. Dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah epoxasının başlanğıcını qoyub. 1969-cu ildə respublikamıza rəhbərliyinin elə ilk günlərindən Heydər Əliyevin Azərbaycan dövlətinin

Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Yalnız Azərbaycanda deyil, bütün dünyada bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəslənilib.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənmişik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" - deyə böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir. Şükürlər olsun ki, ulu tanrı xalqımıza Heydər Əliyev dühası kimi böyük şəxsiyyət qismət edib. Bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş ümummilli liderimizin ideyaları daim yaşayacaq. Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün güc mənbəyidir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada ümummilli liderimizin izi olmasın. Bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz Heydər Əliyevin qüdrətli əlləri ilə hörülüb.

Ulu öndərimiz hakimiyyətdə olduğu bütün dövrlərdə-1970-80-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycanın və xalqımızın hərtərəfli inkişafında çox mühüm rol oynayıb. Bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur, xoşbəxtlik gətirir. Ulu öndərimizin siyasəti yaşayır, möhkəmlənir və zənginləşir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi onu deməyə tam əsas verir ki, bu böyük dövlət xadiminin hakimiyyətə gəlişi mühüm tarixi zərurətdən doğub. Heç də təsadüfi deyil ki, bu illər tariximizin Heydər Əliyev dövrü adlandırılır. Bu, millətin gələcək liderinin qarşıdakı bir çox illər üçün xalqın etimadını qazanmaq yolunda ilk addımı idi. Azərbaycanda möhkəm nizam-intizam, qayda-qanun yaradıldı. Heydər Əliyev Azərbaycanı geri qalmış aqrar bir respublikadan keçmiş İttifaqın sənaye cəhətdən inkişaf etmiş bir respublikasına çevirə bilmişdi. Tükənməz enerjisi, qeyri-adi təşkilatçılıq bacarığı ona hər yerdə böyük hörmət gətirmişdi, dünyanın ən qabaqcıl siyasətçiləri onunla hesablaşırdılar, bu böyük şəxsiyyətə layiq olduğu yüksək ehtiram göstərirdilər.

Heydər Əliyev 14 il Azərbaycan KP MK-nın birinci katibi oldu. Bu vəzifədə onun yüksək təşkilatçılıq bacarığı, islahatçı dövlət xadimi kimi istedadı özünün parlaq təcəssümünü tapdı.

1982-ci ildə Siyasi Büroya üzv seçilərək SSRİ-ni idarə edən vəzifəli şəxslərdən biri olarkən bu dahi siyasətçinin potensialı daha geniş miqyasda üzə çıxdı. Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi Azərbaycanı dünyaya tanıtdırmaq üçün əlavə imkanlar demək idi və o, vətənini, xalqını dərindən sevən insan kimi, yaranmış imkanlardan maksimum istifadə etməyi bacarırdı. Azərbaycanlı Heydər Əliyevin Siyasi Büro üzvü seçilməsi və ittifaq rəhbərliyində yüksək vəzifə tutması mühüm siyasi hadisə və xalqımız üçün böyük iftixar və qürur mənbəyi idi. Azərbaycan xalqının milli özünüifadəsi və inkişafı faktının təsdiqi idi. Heydər Əliyev Sovet İttifaqının rəhbərləri arasında öz erudisiyası və qabiliyyətləri ilə seçilirdi. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət, sözün əsl mənasında şəksiz lider idi.

Sirr deyil ki, ulu öndərimizin Azərbaycanda hakimiyyətə gəlişi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni epoxanın, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, sosial-iqtisadi və mədəni sahələrdə aparılan dərin islahatların xarakterinə, xalqın maddi rifah halının yaxşılaşdırılmasına və yeni mərhələyə keçirilməsinə görə həmin illər müasir tariximizdə ən mühüm yerləri tutur.

Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda hakimiyyətə gəldiyi gün həyatımızın olduqca mühüm tarixi hadisəsi kimi yaddaşlarda əbədi qalıb. Dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah epoxasının başlanğıcını qoyub. Heydər Əliyev hələ sovet rejimi şəraitində bəşəriyyətin ən aktual çağırışlarına cavab vermək iqtidarında olan müasir ruhlu yeni rəhbər nümunəsi idi.

**Vəli ALBƏNDOV,**
**"Qarabağ-E.R" MMC-nin baş direktoru, Əməkdar mühəndis, Yeni Azərbaycan Partiyasının üzvü.**

# Qaradağ rayonunda məcburi köçkünlərlə görüş olub



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Bakı şəhərində qəzalı binalarda, yararsız tikililərdə, yaşayış üçün təhlükəli yerlərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi tapşırıqların icrasını davam etdirir.**

Dövlət Komitəsinin sədri bu məqsədlə Bakının Qaradağ rayonunda qamış tipli üçmərtəbəli qəzalı binalarda müvəqqəti məskunlaşmış 37 məcburi köçkün ailəsi ilə görüşüb. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.

Dövlət Komitəsinin sədri onların problemləri ilə yerində tanış olub, qayğılarını dinləyib, suallarını cavablandırıb. Məcburi köçkünlərin problemlərinin araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

AZƏRTAC

# FHN Yevlaxda və Ağsuda baş verən yanğınlarla bağlı məlumat yayıb

**Fövqəladə Hallar Nazirliyi (FHN) iyulun 12-də Yevlax və Ağsu rayonlarında baş verən yanğınlarla bağlı məlumat yayıb.**

FHN-dən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə saat 16:15-də Yevlax rayonunun Xanabad kəndi yaxınlığında biçilmiş taxıl sahəsində yanğının baş verməsi barədə məlumat daxil olub. Əraziyə dərhal FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) yanğınsöndürmə qüvvələri və texnikası cəlb olunub. Görülmüş operativ tədbirlər nəticəsində yanğının yaxınlıqdakı yüksəkgərginlikli elektrik hava xətlərinə yaxınlaşmasının qarşısı alınıb (150-200 metr məsafədə). Alov 18:18-də yanğısöndürənlər tərəfindən söndürülüb.

Yanğın nəticəsində 79 hektar biçilmiş taxıl sahəsi və 1 hektar kol-kos yanıb. Yaxınlıqdan keçən yüksəkgərginlikli elektrik hava xətləri, meşə zolağı, ferma və ətraf ərazilər yanğından mühafizə olunub.

Saat 14:30 radələrində Ağsu rayonunun Bico kəndi yaxınlığındakı biçilmiş taxıl sahəsi və kol-kos olan ərazidə yanğın baş verməsi barədə də məlumat daxil olan kimi FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvə və texnikası dərhal yanğının söndürülməsi işlərinə cəlb edilib.

Yanğının yüksəkgərginlikli elektrik hava xətlərinin yaxınlığında baş verməsi yanğının söndürülməsində çətinliklər yaradıb. Yanğın sürətlə geniş ərazilərə yayıldığından qonşu rayonlardan da FHN DYMX-nin canlı qüvvə və texnikası, Fövqəladə Hallar Nazirliyinin Aviasiya dəstəsinin "Be-200 ÇS" amfibiya təyyarəsi və "Mi-17" yanğınsöndürmə helikopteri, Mülki Müdafiə Qoşunlarının və Şimal-Qərb Regional Mərkəzinin canlı qüvvəsi və texnikası yanğınsöndürmə işlərinə cəlb olunub.

Həyata keçirilmiş operativ tədbirlər nəticəsində bu istiqamətdə yanğının yüksəkgərginlikli elektrik hava xətlərinə yaxınlaşmasının qarşısı alınıb. Hazırda yüksəkgərginlikli elektrik hava xətlərinə təhlükə yoxdur. Yanğının söndürülməsi istiqamətində işlər davam etdirilir.

Yanğının söndürülməsi işlərinə Ağsu Rayon İcra Hakimiyyətinin müvafiq qüvvələri və yerli əhali də cəlb olunub.

Əlavə məlumat veriləcək.

AZƏRTAC

# Enerji sisteminin dayanıqlığının qorunub saxlanılması üçün "Azərenerji" tərəfindən lazımi tədbirlər görülür

**Enerji sisteminin dayanıqlığının qorunub saxlanılması üçün "Azərenerji" ASC tərəfindən lazımi tədbirlər görülür.**

"Azərenerji" ASC-dən AZƏRTAC-a bildirilib ki, iyulun 12-də saat 15:30 radələrində Mingəçevir şəhərindən 151 kilometr məsafədə yerləşən Ağsu rayonunun Bico kəndi, eyni zamanda Yevlax rayonunun Xanabad kəndindən 20 kilometr məsafədə eyni vaxtda Hava Elektrik Veriliş xətlərinin yerləşdiyi ərazilərdə genişmiqyaslı yanğın törədilib. "Azərenerji" ASC-nin Mərkəzi Dispetçer İdarəsinə daxil olmuş məlumat əsasında, "Azərbaycan" İES və Mingəçevir SES-i Abşeron Yarımstansiyası ilə birləşdirən yüksəkgərginlikli 220 kilovoltluq Qəbələ, 220 kilovoltluq Ağsu və 330 kilovoltluq 1-ci Abşeron hava xətləri yanğına məruz qaldığı üçün baş verə biləcək ağır qəzanın qarşısını almaq məqsədilə dispetçerlər tərəfindən dövrədən ayrılıb.

Digər 500 kilovoltluq 2-ci Abşeron Hava xəttində isə yanğının təsiri nəticəsində qısaqapanma baş vermiş və xəttin mühafizəsi tərəfindən dövrədən ayrılıb.

Yüksəkgərginlikli 220-500 kilovoltluq hava xətlərin altında törədilmiş hər hansı bir yanğının (onun istər başlanğıcı istərsə də inkişafı dövründə) nəticəsində hava xəttinin məftilləri ilə yer arasındakı hava izolyasiyasının elektrik möhkəmliyini kəskin dərəcədə azalır. Havanın temperaturunu və yanğın nəticəsində əmələ gəlmiş tüstünün tərkibini nəzərə alsaq, ərazidən keçən xəttin izolyasiyasının elektrik möhkəmliyinin tədricən aşağı düşməsi, məftillə yer arasında qısaqapanmaya gətirib çıxarır. Yanğından baş verən qısaqapanmanın aradan qaldırılması üçün xətt dövrədən açılır. Xətt təkrar qoşma avtomatı tərəfindən vurulduqda yanğının davam etməsi nəticəsində xətt yenidən açılır. Son nəticədə xəttin dövrəyə qoşulması mümkünsüz olur. Beləliklə, yanğın nəticəsində əsas güc ötürücü xətlərinin dövrəyə qoşulması mümkün olmur ki, bu da sistemin dayanıqlığının itirilməsi üçün böyük təhlükə yaradır.

Yüksək gərginlikli hava elektrik veriliş xətlərinin altında törədilmiş yanğın nəticəsində sistemin dayanıqlığının qorunub saxlanılması üçün "Azərenerji" ASC tərəfindən lazımi tədbirlər görülür.

AZƏRTAC

# PROFİLAKTİK PEYVƏNDLƏMƏ PROSESİNƏ NƏZARƏT VƏ SAHİBKARLARLA GÖRÜŞLƏR



**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin rəisi vəzifəsini icra edən Bayandur Rzayev Ağcabədi, Bərdə və Tərtər rayonlarına səfər edib. Səfərin məqsədi heyvan xəstəliklərinə qarşı aparılan profilaktik peyvəndləmə, şəffaflığın təmin edilməsi proseslərinə nəzarət və fərdi təsərrüfat sahibləri ilə görüşlərin keçirilməsi olub.**

Səfər çərçivəsində keçirilən görüşlərdə B.Rzayev heyvanların sağlamlıq vəziyyətinə dair aparılan baytarlıq tədbirlərinin keyfiyyəti, ölkənin epizootik sabitliyinin qorunması, heyvanların cins tərkibinin yaxşılaşdırılması, yeni innovasiyaların tətbiqi, müasir heyvandarlıq komplekslərinin yaradılması və genişləndirilməsi barədə danışıb.

Səfər çərçivəsində Bayandur Rzayev Bərdə rayonunun Türkmən kəndində yerləşən Şəhriyar adına fermer təsərrüfatda olub, heyvanların saxlama, yemləmə, sağım və doğum şəraiti və müxtəlif xəstəliklərə qarşı aparılan peyvəndləmə tədbirləri ilə tanış olub, təsərrüfat sahibləri ilə görüş keçirib.

B.Rzayev təsərrüfat sahiblərinin müraciətlərini, arzu və təkliflərini dinləyib, heyvanların sağlamlığının təmin edilməsi ilə bağlı müvafiq tövsiyələr verib.

Dövlət Baytarlıq Xidmətinin rəhbəri baytarlıq idarələrinin diaqnostik kabinetlərinə, soyuducu kameralarına və digər inzibati bölmələrinə baxış keçirib, idarələrin maddi-texniki təminatı, baytarlıq kadrlarının təhsil səviyyəsi və iti yoluxucu xəstəliklərə qarşı aparılan peyvəndləmə tədbirlərinin nəticələri ilə yaxından tanış olub.

**Nəriman CAVADOV,**
**"Respublika".**

*Nəsillərə nümunə*

# Vətənə, xalqa bağlı ömür



**Namiq Həsənov ömrünün 74-cü baharını yaşayır, boyu-qaməti sərv ağacına bənzəyir, Vətənini, xalqını, böyüyüb boya-başa çatdığı müqəddəs Naxçıvan torpağını ürəkdən sevir, onun loğman, romantik təbiətinin vurğunudur. Xoş əməlləri ilə insanların qəlbində özünə əbədi heykəl ucaldıb, indi ömür təqviminin ən müdrik illərini yaşayır, haqqında söhbət açdığımız Namiq müəllimin xarici görkəmi, xarakteri, həyat tərzi, sadiqliyi onun soy-kökü ilə, doğulduğu, böyüdüyü mühitlə sıx bağlıdır.**

**Haqqında qalın kitablar, müxtəlif qəzetlərdə geniş və oxunaqlı məqalələr yazılan, bir çox orden və medallara layiq görülən Namiq Həsənov Naxçıvanın Babək rayonunun Cəhri kəndində dünyaya göz açıb. Onu həyata hazırlayan mütaliə etdiyi kitablar, ünsiyyətdə olduğu mühit olub. Orta məktəb illərindən məntiqi, təşkilatçılığı, cəmiyyət arasında tez nüfuz qazanmaq bacarığı ilə seçilib.**

Peşəsi, ixtisası ilə yox, şəxsi keyfiyyətləri, nüfuzu ilə, sözün həqiqi mənasında, cəmiyyətdə müəllim adı almış Namiq Həsənovun 1983-92-ci illərdə Naxçıvan MR Daxili İşlər Nazirliyindəki fəlaiyyəti xüsusilə yaddaqalan olmuşdur. O, bu qurumdakı fəaliyyəti ilə də vəzifəyə karyera, şan-şöhrət naminə deyil, Vətəninə, xalqına ləyaqətlə xidmət etmək naminə gəldiyini sübut etdi.

1990-92-ci illərdə polis polkovniki Namiq Həsənovun rəhbər polis rejimini hərbi mundirlə əvəz edib səhra komandiri, çox vaxt adi vətən mücahidi kimi düşmənlə amansız döyüşə girməsini naxçıvanlılar yaxşı xatırlayır. Həmin dövrdə məhz Namiq Həsənovun ətrafında birləşən polis və özünümüdafiə dəstələri Naxçıvan torpağının bir qarışına da erməni daşnaklarının ayağının dəyməsinə imkan vermədilər.

Namiq Həsənovun xidmətləri, şəxsi keyfiyyətləri ulu öndərin diqqətindən yayınmırdı. Dahi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycan Respublikasının prezidenti seçildikdən bir müddət sonra - 1994-cü ilin aprelində Namiq Həsənovu Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə tövsiyə etdi. Məclisin üzvləri əksər səs çoxluğu ilə bu tövsiyəni qəbul etdilər.

Heydər Əliyev kimi fenomenal şəxsiyyətin işlədiyi otaqda oturub, bu yenilməz insanın Naxçıvanda başladığı işləri davam etdirmək nə qədər şərəfli idisə, bir o qədər də çətin və məsuliyyətli idi. İşıqlı düha sahibi Namiq Həsənov burada da böyük öndərin siyasi xəttinə sədaqət nümunəsi göstərərək muxtar respublika əhalisinə ləyaqətlə xidmət etdi. Qarşıda Kələkidə toplaşan pozucu dəstələrin nəinki muxtar respublikada, eləcə də bütün Azərbaycanda yenidən qarışıqlıq cəhdlərini dəf etmək, Naxçıvanın etibarlı müdafiəsini təşkil etmək üçün yenicə yaradılmış nizami ordunun möhkəmləndirilməsi, blokadada olan Naxçıvan əhalisini elektirk enerjisi, çörək, su və zəruri ərzaq məhsulları ilə təmin etmək kimi vəzifələr dururdu. Ən çətin məqamlarda ümummilli lider Heydər Əliyevin diqqət və qayğısına ehtiyac olurdu. Bu dövrdə Namiq Həsənov ulu öndərdən əxz etdiyi ənənələrə sadiq qalaraq tez-tez əhali ilə yaddaqalan görüşlər keçirir, onları çətinliklərin tezliklə aradan qaldırılmasına inandırırdı. Zaman göstərdi ki, Namiq müəllim qənaətlərində yanılmayıb. Onu xalqın gözündə pillə-pillə ucaldan, nüfuz və hörmət sahibi edən əsas amil də budur.

Namiq Həsənov bir siyasi xadim, təcrübəli rəhbər kimi də bütün sınaqlardan alnıaçıq çıxıb. O, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik edərkən ümummilli liderimiz Heydər Əliyevin tövsiyələrinə uyğun olan uğurlu təşkilatçılıq işləri aparmış, dahi rəhbərin zəngin dövlətçilik təcrübəsindən bəhrələnərək bölgənin mürəkkəb qayğılarının həlli üçün əlindən gələni etmişdir. Həm rəhbərə, həm də xalqına sədaqətini hər bir vəziyyətdə ortaya qoya bilmiş, o bu postda, eləcə də sonralar çalışdığı vəzifədə daim ona bəslənilən ümidləri doğrultdu, hər yerdə özünü layiqli təşkilatçı, ziyalı, əsl vətənpərvər kimi təsdiq etdi. Adını yaddaşlara yaxşı rəhbər kimi yazdı.

Biz isti bir yay günündə 74 yaşlı **Namiq Həsənovla** Bakının füsunkar bir guşəsində, Xəzərin nəğməli sahillərində görüşüb söhbət etdik. O, Naxçıvan MR Ali Məclisinə sədr gəlməsi ilə bağlı xatirələrini danışaraq dedi:

—Əvvəlki kimi Naxçıvan MR Ali Məclisində şöbə müdiri işləyirdim. Prezident seçildikdən sonra ulu öndər, ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyev məni ilk dəfə Bakıya — öz qəbuluna dəvət etdi. Naxçıvandakı vəziyyətlə bağlı söhbətlər apardı, məsləhət və tapşırıqlar verdi. Ali Məclisin sədri vəzifəsinə məhz məni məsləhət gördüyünü, buna qərar verdiyini bildirdi...

Heydər Əliyevin təklifi mənim üçün gözlənilməz olduğundan və həyəcan keçirdiyimdən, dərhal cavab verə bilmədim. Reaksiyamı diqqətlə müşahidə edib, soruşdu:

—Necə baxırsan, çətin olmayacaq?

Dedim ki, cənab Prezident, hamı bilir ki, hazırkı dövrdə, xüsusən də sizdən sonra Naxçıvana rəhbərlik etmək çox ağır, çox məsuliyyətli bir işdir. Mənə hədsiz dərəcədə böyük etimad göstərdiniz. Buna layiq olmağa çalışıram. Ancaq, nə bilim, sizin köməyiniz olmasa...

Sözümün ardını gözləmədən:

—Məsuliyyətli iş olduğunu düz deyirsən. Məndən sonra orada hər adamı rəhbər kimi qəbul etməzlər. Buna baxmayaraq, nəzərə almışam ki, sənin haqqında yaxşı fikir var. Yaddan çıxarma ki, mən Naxçıvana çox bağlıyam, həm də sənə inanıram. Çalış ki, yaxşı işləyəsən.

Heydər Əliyev lazımi tapşırıqlarını və məsləhətlərini verəndən sonra məni təbrik etdi, səmimiyyətlə əlimi sıxıb getməyimə icazə verdi.

Ulu öndər Heydər Əliyevin məsləhəti və sərəncamı ilə son iş yeri olan Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsində də Namiq Həsənov yüksək şəxsi keyfiyyətlərinə sadiq qaldı.

Namiq müəllim istər ölkəmizin daxilində, istərsə də onun hüdudlarından kənarda öz xalqını, doğma Azərbaycanımızı layiqincə təmsil edə bilən, ona başucalığı gətirən, səviyyəli və dünyagörüşlü bir ziyalıdır. Hər kəsə örnək olan bir ziyalıdır. Onun haqqında düşünəndə gözlərin önündə Naxçıvanın vüqarlı dağları canlanır.

Namiq Həsənovla bağlı onun doğmalarının, yaxından tanıyanların ürək sözlərini olduğu kimi qələmə alırıq.

**Həbib Həsənov (Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi, Namiq Həsənovun oğlu):**

—Hərəyə bir ömür payı, tale qisməti yazan Allah 75 illik yubileyi yaxınlaşan atam Namiq Həsənovdan nəzərini əsirgəməyib, ona geniş qəlb, xeyirxah xislət, elinə-obasına layiqli xidmət etmək sevgisi bəxş edib.

Erməni işğalçılarının ərazilərimizə hücumu zamanı o, döyüşçülərlə çiyin-çiyinə dayanıb. Ən çətin anlarda xalqın arasında olub onların həyəcan və qayğılarını bölüşür, torpaqlarımızın müdafiəsini təşkil edir, işi ilə əhali arasında əminlik, əsgərlər içərisində döyüş əzmi yaradıb.

Atam Namiq Həsənovun Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri çalışdığı illər çox gərgin dövr idi. Atam ona etibar edilən bu məsuliyyətli işin öhdəsindən ləyaqətlə gəldi, mümkün ola bilən çevik iqtisadi-sosial tədbirlər həyata keçirildi, ulu öndərimiz Heydər Əliyevin məqsədyönlü dəst-xəttini Naxçıvanda bacarıqla qoruyub saxladı. Çalışdığı iş otağının qapısı sözü, müraciəti olan insanların üzünə həmişə açıq oldu.

Atam bu gün ömrünün müdriklik çağını yaşayır. Ona möhkəm can-sağlığı arzulayır, övladları, nəvələri və nəticələri ilə birlikdə xoş günlər arzulayıram.

**Elmira Əliyeva (Namiq Həsənovun bacısı, respublikanın əməkdar həkimi):**

—Hər bir bacı üçün qardaş çox əzizdir, onun güvənc və iftixar yeridir. Çox şükürlər olsun ki, Allah mənə gözəl qardaşlar qismət edib. Qardaşım həmişə rəhbər vəzifələrdə çalışıb, öz çalışqanlığı, fədakarlığı ilə özünə şan-şərəf heykəli ucaldıb. Vətənpərvərliyi, aydın mövqeyi, bacarıqlı dövlət adamı olmasının nəticəsi idi ki, Namiq bütün vəzifələrdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında Ali Məclisin sədri vəzifəsində də hamı tərəfindən sevilib, necə deyərlər, xalqın ümid çırağına çevrilib...

**Eldar İbrahimov (Milli Məclisin Aqrar Siyasət Daimi Komissiyasının sədri, iqtisad elmləri doktoru):**

—Yaxın dostum, 74 yaşlı Namiq Həsənov bir vaxtlar Naxçıvan Şəhər Komsomol Komitəsinin birinci katibi, Muxtar Respublika daxili işlər nazirinin müavini işləmiş, ulu öndər Heydər Əliyevdən sonra Naxçıvan Muxtar Respublikasında Ali Məclisə rəhbərlik etmişdir.

Namiq Həsənovun rəhbərliyi altında mən Naxçıvan MR Baş nazirinin birinci müavini - Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri işlədim. Onun səyi nəticəsində işlədiyi dövrlər Naxçıvan MR iqtisadiyyatında böyük dönüş mərhələsi oldu. İstər aqrar sahədə, istər tikinti, sənaye, maarif, mədəniyyət sahələrində uğurlu nəticələrə imza atıldı. Xüsusilə Naxçıvanın təhlükəsizliyinin təmin olunmasında gərəkli işlər görüldü. Hərbi quruculuğa mühüm diqqət göstərildi.

Namiq Həsənov Naxçıvan torpağına sidq ürəklə bağlıdır. Bu yurdun hər bir uğuruna ürəkdən sevinir. Eşidəndə ki, yaxın günlərdə Naxçıvanda strateji əhəmiyyətli yüksəliklər qüdrətli Azərbaycan ordusu tərəfindən ələ keçirilib, fərəhi köksünə sığmayıb, özünü göylərin yeddi qatında hiss edib. Namiq Həsənov qürur hissi keçirir ki, bu gün Prezident İlham Əliyev tərəfindən ulu öndər Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir, insanların həyat tərzi yaxşılaşır və Bakı dünyanın ən gözəl şəhərlərindən biridir.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

# Qida Təhlükəsizliyi Agentliyi heyvan kəsimi məntəqələrində aparılan monitorinqlərin nəticələrini açıqlayıb

**Qida Təhlükəsizliyi Agentliyi heyvan kəsimi məntəqələrində aparılan monitorinqlərin nəticələrini açıqlayıb.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, qurum bu ilin may ayından etibarən qida zəncirinin bütün mərhələlərində iştirak edən sahibkarlıq subyektlərində, eyni zamanda, heyvan kəsimi məntəqələrində monitorinqlərə başlayıb. Monitorinqlər əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin olunması üçün mövcud vəziyyətin öyrənilməsi və mərkəzləşmiş ət kəsimi fəaliyyəti ilə bağlı maarifləndirmə işlərini əhatə edir.

Aparılan monitorinqlər nəticəsində heyvan kəsimi ilə bağlı ölkə ərazisində mövcud vəziyyətin öyrənilməsi ilə yanaşı, regionlar üzrə vətəndaşların gündəlik ət tələbatının həcmi agentlik əməkdaşları tərəfindən araşdırılaraq müəyyən olunub. Araşdırmanın ilkin nəticələrinə uyğun olaraq Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda heyvan kəsimi üçün yararlı, baytarlıq-sanitariya normalarına cavab verən kəsim məntəqələrinin ünvanları qeyd edilib.

Belə ki, Bakı şəhəri üzrə heyvan kəsimi normalarına cavab verən heyvan kəsim məntəqələrinə fiziki şəxs Ağalarov Elşən Nurəddin oğluna məxsus iri və xırdabuynuzlu heyvanların kəsim məntəqəsi (Bakı şəhəri, Binə qəsəbəsi, Xətai küçəsi 7), fiziki şəxs Ucal Ergünə məxsus iri və xırdabuynuzlu heyvanların kəsim məntəqəsi (Bakı şəhəri, Nərimanov rayonu, Ə.Əliyev küçəsi 26), "Təbriz" kəsim məntəqəsi Keşlə bazarının yanı (Bakı şəhəri, Nərimanov rayonu, Ə.Əliyev küçəsi 36 A), "Qoc Ət " Kəndli Fermer Təsərrüfatı MMC (Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Ş.Xəlilov küçəsi, 13), "ESE" MMC (Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 92), "AzMeat production" MMC (Bakı şəhəri, Zabrat qəsəbəsi, Babək küçəsi 110), "Az Protein Food Production" MMC (Bakı şəhəri, Buzovna qəsəbəsi, Albalı massivi), fiziki şəxs Tamara Aslanovaya məxsus heyvan kəsim məntəqəsi "Oazis" restoranının yanı (Bakı şəhəri, Cəfər Xəndan 52 c), "AzərAqro" MMC (Bakı şəhəri, Nizami rayonu, 8-ci kilometr qəsəbəsi, Mehdi Abbasov küçəsi), "Aqrovest" MMC (Bakı şəhəri Qaradağ rayonu, Binə Ticarət mərkəzinin qarşısı), fiziki şəxs Hüseynov Nəsimiyə məxsus heyvan kəsim məntəqəsi (Nizami rayonu, Çobanzadə küçəsi 63), fiziki şəxs Əliyev Hamletə məxsus kəsim məntəqəsi (Bakı şəhəri, Səbail rayonu Gülbala Əliyev küçəsi 20) daxildir.




Sumqayıt şəhəri üzrə heyvan kəsim məntəqələrini isə fiziki şəxs Arif Hüseynova məxsus heyvan kəsim məntəqəsi (Sumqayıt şəhəri, Çerkassi küçəsi, 46-cı məhəllə), "Mərcan" heyvan kəsim məntəqəsi (Sumqayıt şəhəri, Koroğlu prospekti) təşkil edir.

Həmçinin Abşeron rayonu üzrə heyvan kəsim məntəqələrinə "Səhliyalı" MMC (Xırdalan şəhəri, H.Əliyev küçəsi), "Zəhmət-Ruzi" MMC-yə məxsus iri və xırdabuynuzlu heyvanların kəsim məntəqəsi (Xırdalan şəhəri, Quşçuluq massivi, H.Əliyev küçəsi 38), fiziki şəxs Rasim Rzaxanova məxsus heyvan kəsim məntəqəsi (Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsi) fiziki şəxs Rafiq Rüstəmova məxsus heyvan kəsim məntəqəsi (Abşeron rayonu, Məhəmmədli kəndi, Mürvət Şirinov küçəsi) aiddir.

Qeyd edilib ki, hazırda monitorinqlər davam edir və heyvan kəsimi normalarına cavab verən kəsim məntəqələri ilə bağlı məlumatlar mütəmadi olaraq siyahıya əlavə olunacaq, ictimaiyyətin diqqətinə çatdırılacaq.

AZƏRTAC

# AQTA qanunsuz heyvan kəsimi fəaliyyəti ilə bağlı növbəti xəbərdarlıq etdi

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyi tələblərinə, sanitar-gigiyenik normalara uyğun olmayan heyvan kəsimi məntəqələrinin sahiblərinə növbəti xəbərdarlıq edib.**

Bu barədə AZƏRTAC-a agentliyin Kommersiya və İnformasiya Texnologiyaları Şöbəsindən açıqlama verilib.

Məlumata əsasən, "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli Sərəncamının icrası ilə bağlı olaraq Qida Təhlükəsizliyi Agentliyi baytarlıq-sanitariya və gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi ilə məşğul olan şəxslərdən qanunsuz fəaliyyətlərini dayandırmağı tələb edir.

Agentlik xəbərdarlıq edir ki, qanunvericiliyin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə bu cür fəaliyyətlərin aradan qaldırılması üçün qanunla müəyyən olunmuş qaydada tədbirlər həyata keçiriləcək.

Qida Təhlükəsizliyi Agentliyi əhalinin sağlam ət və ət məhsulları ilə təmin olunması üçün bir daha qeyri-qanuni heyvan kəsimi fəaliyyəti ilə məşğul olan şəxsləri qanunvericiliyin tələblərinə əməl etməyə və bu sahədə qanunsuz fəaliyyət göstərməməyə çağırır.

Qeyd olunub ki, Qida Təhlükəsizliyi Agentliyi bu ilin may ayından etibarən qida zəncirinin bütün mərhələlərində iştirak edən sahibkarlıq subyektlərində, eyni zamanda, heyvan kəsimi məntəqələrində monitorinqlər həyata keçirib.

Mövcud vəziyyətin öyrənilməsi və əhalinin təhlükəsiz qida məhsulları ilə təmin edilməsi məqsədilə həyata keçirilən monitorinqlərdə agentliyin əməkdaşları tərəfindən heyvan kəsimi sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə qanunvericiliyin tələbləri ilə yanaşı, mərkəzləşmiş heyvan kəsimi məntəqələrinin fəaliyyəti ilə bağlı geniş məlumatlar verilib, maarifləndirici materiallar paylanılıb.

AZƏRTAC

# Gəncə hadisələri ilə əlaqədar yaradılmış istintaq-əməliyyat qrupunun rəhbərliyi və üzvləri ilə geniş müşavirə keçirilib

## *Gəncədə qanlı cinayəti törədənlərdən 9 nəfər tutularaq barələrində məhkəmənin hökmü ilə həbs qətimkan tədbiri seçilib*

**İyulun 12-də Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralov, daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Gəncəyə gedərək, orada baş vermiş məlum hadisələrlə əlaqədar yaradılmış istintaq-əməliyyat qrupunun rəhbərliyi və üzvləri ilə geniş müşavirə keçirib, görülən işlər barədə hesabatlarını dinləyiblər.**

Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında qeyd olunub ki, həmin qanlı cinayəti törədənlərdən 9 nəfərin tutularaq barələrində məhkəmənin hökmü ilə həbs qətimkan tədbiri seçildiyi məruzə olunub.

Dövlət qurumlarının rəhbərləri cinayətin digər iştirakçılarının da tapılıb-tutulması üçün istintaq hərəkətlərinin intensivliyinin artırılması, əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi ilə bağlı əlavə tapşırıqlar veriblər.

Müşavirədən sonra baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev iyulun 10-da radikal dini yönümlü şəxslərin Gəncədə asayişi kobud şəkildə pozmasının qarşısını alarkən şəhid olmuş polis polkovniki İlqar Balakişiyevin və polis polkovnik-leytenantı Səməd Abbasovun yas mərasimlərində iştirak ediblər. Onlar Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, polis əməkdaşlarının ailələrinə və yaxınlarına dövlətimizin başçısının başsağlığını çatdırıb, kədərlərinə şərik olublar.

**AZƏRTAC**

# Gəncə sakinləri şəhərdə baş verən təxribat xarakterli əməlləri qətiyyətlə pisləyirlər

**Gəncə sakinləri son günlər şəhərdə baş verən cinayət əməllərini, onların icraedicilərini qətiyyətlə pisləyir, cinayətkarların hamısının tezliklə tapılıb layiqli cəzalarını almalarını istəyirlər. Daim Prezidentin ətrafında sıx birləşən gəncəlilərin ümumi fikri budur ki, şəhərdə baş verən iğtişaş ölkəmizdə sabitliyin pozulmasını istəyən qüvvələrin, eləcə də xaricdən idarə olunan bir qrup təxribatçının atdıqları addımların nəticəsidir.**

**AZƏRTAC-ın bölgə müxbiri Gəncə sakinləri ilə görüşüb, son günlər şəhərdə baş verən hadisələr barədə onların fikirlərini öyrənib.**

**Orxan Məmmədov:** İyulun 10-da Gəncədə baş verən hadisədən də göründüyü kimi, bir qrup şəxs şəhərimizdə sabitliyi, asayişi pozmağa cəhd göstərmişdi. Lakin Azərbaycan polisinin ayıq-sayıqlığı nəticəsində onların planları baş tutmadı. Təəssüf ki, bu təxribatçı əməllərin qarşısının alınması zamanı iki polisimiz şəhid oldu. Bu hadisələr bir daha göstərdi ki, heç bir qüvvə Azərbaycandakı sabitliyi poza bilməz, xalqımız daim Prezidentimizin, dövlətimizin və dövlətçiliyimizin yanındadır. Polisimiz də bir daha ayıq-sayıqlığı ilə nümayiş etdirdi ki, ölkəmizdəki, şəhərimizdəki əmin-amanlığı pozmağa çalışan qüvvələrin qarşısı qətiyyətlə alınacaq. Biz Gəncə gəncləri olaraq, bu cür təxribat əməllərini kəskin qınayırıq.

**Gülsüm Fətəliyeva:** Xalqını, Vətənini sevməyən radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd etdi. Onlar bu qanunsuz əməlləri ilə mənəviyyatlarını göstərdilər. Mən hadisədən bir gün əvvəl şəhid polis zabitimiz İlqar Balakişiyev ilə təsadüfən görüşmüşdüm. O bildirmişdi ki, heç bir narahatlığa ehtiyac yoxdur. Azərbaycan polisi qan tökülməsinə imkan verməyəcək. Təəssüf olsun ki, bütün səylərə baxmayaraq, İlqar müəllim də daxil olmaqla, iki polisimiz şəhid oldu. Gəncə sakinləri bu qəhrəman polislərini izdihamla son mənzilə yola saldı. Qoy mənfur qüvvələr bilsinlər ki, Azərbaycan xalqı öz dövlətini, Prezidentini sevir və onun ətrafında sıx birləşib. Şükürlər olsun ki, hazırda Gəncədə sabitlikdir. Xarici qüvvələrdən pul alıb Vətənini satan xainlərə ar olsun!

**Cavid Bağırzadə:** Şəhərimizdə baş vermiş təxribat xarakterli hadisələr xarici qüvvələrin Azərbaycanda ictimai-siyasi asayişi pozmaq, Azərbaycanın mövcud inkişafını ləngitmək, ölkədə xaos yaratmaq məqsədindən irəli gələn hadisələrdir. Şübhəsiz ki, dövlət orqanları bu istiqamətdə araşdırma aparırlar və şübhə etmirəm ki, tezliklə bütün məsələlər aydınlaşacaq və ictimaiyyətə məlumat veriləcək. Əminəm ki, bütün günahkarlar, səbəbkarlar istintaqa cəlb olunacaq və layiqli cəzalarını alacaqlar. Bu hadisələr təkcə ölkədə sabitliyin pozulmasına yönəlməyib, eyni zamanda, Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlib. Biz müsəlman Şərqində ilk demokratik, parlamentli cümhuriyyət yaratmış xalqıq, bizim zəngin tariximiz var. Biz qədim dövlətçilik tarixinə malik xalqıq. Şübhəsiz ki, Azərbaycanın inkişafını, onun sabitliyini istəməyən qüvvələr məhz dövlətçiliyimizə, müstəqilliyimizə qarşı bu addımı atıblar. Lakin bu məkrli niyyətlər həyata keçmədi, Azərbaycan polisi, xalqımız onun qarşısını qətiyyətlə aldı. Hazırda dövlət strukturlarının səyi nəticəsində şəhərimizdə sabitlik hökm sürür, Gəncə özünün adi günlərindən birini yaşayır.

**Pərviz Adıgözəlov:** Gördüyünüz kimi, Gəncədə sabitlikdir, insanlar şəhərimizin parklarında dincəlir, istirahət edirlər. Biz gəncəlilər bu sabitliyi, sakitliyi pozmaq istəyənləri lənətləyir və hadisələrin kökünün araşdırılmasını, səbəbkarların tezliklə cəzalandırılmasını istəyirik.

Afaq Qasımova: Biz gəncəlilər son günlərdə şəhərimizdə baş verən təxribat xarakterli əməlləri qətiyyətlə pisləyirik. Hazırda şəhərimizdə gördüyünüz kimi, sabitlik tam təmin olunub. Şəhər ictimaiyyətinin üzvləri kimi, biz də qəhrəman polislərimizlə vida mərasimində iştirak etdik. İstərdik ki, bu hadisələri törədənlər tezliklə layiqli cəzalarını alsınlar.

Xatırladaq ki, iyulun 10-da saat 20 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərib. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər.

Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınıb, 40 nəfər tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilib, qalanları qaçaraq ərazini tərk ediblər.

Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən polis zabitləri İlqar Balakişiyev və Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olublar.

**AZƏRTAC**

*Akademik İsa Həbibbəyli:*

# Azərbaycan dövləti sabitliyin möhkəm və etibarlı qarantıdır



**Müasir, müstəqil Azərbaycanın inkişafının ən mühüm amillərindən biri, daha doğrusu, birincisi ölkədə dövlət səviyyəsində ictimai-siyasi sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabit ictimai-siyasi mühit Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində daha da möhkəmləndirilərək böyük inkişafa geniş meydan açıb. Ona görə də, ictimai-siyasi sabitlik müstəqil Azərbaycan dövlətinin ən mühüm nailiyyəti deməkdir və qazanılan böyük uğurların əsasını təşkil edir.**

Son günlərdə Gəncədə baş verən hadisələr, ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəldilib. Sabitliyin hədəfə alınması, çaşqınlıq, xaos yaratmaq və pozuculuq cəhdləri müstəqil dövlətimizin inkişafını gözü götürməyən, buna dözə bilməyən qüvvələrin məqsədyönlü niyyətlərinin ifadəsidir. İndi düşmən qüvvələr qatilləri, terrorçuları din qəhrəmanı kimi qələmə verməyə çalışırlar. Amma unudurlar ki, ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycan multikultural və tolerant ölkədir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri iyulun 10-da Gəncədə baş verən hadisələrə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli söyləyib.

Akademik deyib ki, Gəncə hadisələrində polisin hədəf kimi seçilməsi də təsadüfi deyil. Çünki Azərbaycan polisi müstəqilliyimizin bütün inkişaf mərhələlərində dövlətimizə sədaqətlə xidmət edib. Bu gün Azərbaycan polisinə əl qaldırmaq, atəş açmaq sabitliyin əsas təminatçısı olan polisimizi sarsıtmaq, ictimai rəydə bu inzibati orqanın gücü haqqında formalaşmış müsbət imici aşağılamaq məqsədi daşıyır. Hadisə nə qədər ağır olsa da, sınaqlardan çıxmış Azərbaycan polisini və xalqın ona münasibətini sarsıda bilməz. Ən başlıcası isə Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasəti ürəkdən dəstəkləyir və müdafiə edir. Sözün həqiqi mənasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizdə möhkəm sabitliyin, ədalətin və inkişafın qüdrətli təminatçısı və qarantıdır. Xalqımız, o cümlədən ziyalılarımız belə məsuliyyətli günlərdə dövlət rəhbərimizin ətrafında daha sıx birləşirlər. Bu gün ölkəmizdə möhkəm birlik və sabitlik hökm sürür. Dövlətimiz ölkəmizdə hər cür sabitliyi və normal həyat tərzini təmin edib. Bu, bizim böyük sərvətimizdir. Bu sərvəti qorumaq hər birimizin şərəfli və məsuliyyətli borcudur.

**AZƏRTAC**

*Bilal Dündar:*

# Xarici və daxili düşmənlərə qarşı mübarizədə xalq-iqtidar birliyi çox böyük önəm kəsb edir



**Gəncədə baş verən hadisələr Azərbaycana qarşı təxribatdır.**

Bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar deyib.

Bilal Dündar qeyd edib ki, region üçün mühüm olan iqtisadi layihələrə imza atan Azərbaycanın beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, ölkə iqtisadiyyatı inkişaf edir. Bunu istəməyən qüvvələr Azərbaycanda sabitliyin pozulması üçün istənilən yollara əl atırlar.

Federasiya sədri iki il əvvəl iyulun 15-də Türkiyənin də belə bir təxribatla üzləşdiyini xatırladıb. O əlavə edib ki, terrorla Türkiyəni sarsıtmaq istəyən daxili və xarici düşmənlər eyni ssenarini Azərbaycanın üzərində də reallaşdırmağa çalışdılar. Gəncə Şəhər İcra hakimiyyətinin başçısına qarşı törədilən terror aktından sonra elə bu şəhərdə təxribatçı fəaliyyətə başlanıldı. Xaricdə fəaliyyət göstərən müəyyən qüvvələr inkişaf edən türk dünyasına qarşı dayanmadan terror və təxribat hadisələri törədirlər. Ancaq istər Azərbaycanın, istərsə də Türkiyənin başına gətirilən bu hadisələr xalqın birliyi, həmrəyliyi nəticəsində aradan qaldırılır. Xarici və daxili düşmənlərə qarşı mübarizə aparmaq üçün, ilk növbədə, xalq-iqtidar birliyi çox önəmlidir. Azərbaycana qarşı təxribat da məhz bu birliyə görə puç oldu.

Bilal Dündar qardaş Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduğunu vurğulayıb.

**AZƏRTAC**

# Gəncədə törədilən iğtişaş məkrli qüvvələr tərəfindən həyata keçirilib

**İyulun 10-da Gəncədə baş verən iğtişaşı birmənalı olaraq pisləyirəm. Bu iğtişaş ölkədə çaxnaşma yaratmaqla hansısa çirkin niyyətlərini həyata keçirmək istəyən məkrli qüvvələrin işidir. Bu qüvvələr kənardan idarə olunur. Mənə bu sözləri əminliklə söyləmək imkanını 15 ilə yaxındır ki, Gəncə haqqında nəşr olunan yeganə jurnalın təsisçisi və redaktoru olmağım verir. Eyni zamanda, doğma şəhərimi sevən bir insan kimi baş verən hadisələri mütəmadi olaraq izləyirəm. Son günlər baş verən olayların gedişatı söylədiyim fikri, yəni hadisələrin hansısa kənar qüvvələr tərəfindən və planlı şəkildə həyata keçirildiyini təsdiqləyir.**

Bu sözləri Gəncədəki iğtişaşla bağlı AZƏRTAC ilə fikirlərini bölüşən AMEA Elm Tarixi İnstitutunun elmi işçisi, Gəncədə doğulub boya-başa çatmış Elcan Oruclu deyib.

"Diqqətçəkən məqamlardan biri də budur ki, neçə müddətdir xarici ölkələrdə oturub, sosial şəbəkələrdə Azərbaycan hakimiyyətinə qarşı radikal mövqeli videolar paylaşmaqla məşğul olan ünsürlər, həmçinin bəzi televiziya və media qurumları Gəncədəki sui-qəsd olayını təhrif olunmuş formada şərh etməyə başladılar. Nəticə çox acınacaqlı oldu. Bir qrup qaragüruhçu çaxnaşma yaratdı, iki polis əməkdaşı qətlə yetirildi. Çox təəssüflənirəm. Gəncə adının həmişə olduğu kimi şərəf və ləyaqətlə çəkilməsini istəyən şəxs olaraq, bu cinayəti törədənlərin tezliklə aşkarlanıb hüquqi məsuliyyətə cəlb olunacağını səbirsizliklə gözləyirəm", - deyə E.Oruclu bildirib.



**AZƏRTAC**

*Professor İslam Mustafayev:*

# Gəncədəki iğtişaş ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən törədilib

**Azərbaycan regionda lider dövlətdir. Ölkəmiz iqtisadiyyat, təhsil, mədəniyyət, turizm, idman və digər sahələr üzrə uğurla inkişaf edir. Dövlətimizin başçısının rəhbərliyi ilə çoxlu strateji proqramlar qəbul olunub. Bu proqramlar ölkənin davamlı inkişafını təmin edir. Lakin bu inkişafı gözü götürməyən qüvvələr Azərbaycanda iğtişaşlar törətməyə, insanları vahiməyə salmağa çalışırlar. Gəncədə baş verən məlum hadisələr zamanı dövlət məmurlarına sui-qəsdlər də bu məqsədlə törədilib.**

Bu sözləri Gəncədəki iğtişaşla bağlı fikirlərini AZƏRTAC-la bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor İslam Mustafayev söyləyib.

Alim deyib: "Mən bir ziyalı olaraq hesab edirəm ki, son hadisələr ölkəmizi, inkişafımızı istəməyən qüvvələr tərəfindən törədilib. Onlar istəyirlər ki, digər müsəlman ölkələrindəki qeyri-sabitlik Azərbaycanda da baş versin. Lakin təhsilli, dünyagörüşlü, hər bir məsələni düzgün qiymətləndirən insanlarımız buna imkan verməyəcəklər. Xalqımız Gəncə hadisələrini qətiyyətlə pisləyir. Belə halların qarşısının alınmasında dövlətimizin güc strukturlarının operativ və sayıq addımları, sabitliyi bərqərar etmələri xalqda böyük inam və güvən yaradır. İnanıram ki, ən səmərəli üsullardan istifadə edilərək məlum hadisələrin təkrarlanmasına yol verilməyəcək, radikal dini qrupların üzvləri tapılaraq məsuliyyətə cəlb olunacaq, ölkəmiz bundan sonra da dinamik inkişaf yolu ilə irəliləyəcək".



**AZƏRTAC**

# Vəkillər Kollegiyası ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

**Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Cənubi Qafqaz üzrə hüquq" layihəsinin rəhbəri Tomas Meyer Vəkillər Kollegiyasının Rəyasət Heyətində olub.**

Vəkillər Kollegiyası Rəyasət Heyətindən AZƏRTAC-a bildiriblər ki, kollegiyanın sədri Anar Bağırov qonağa son dövrlər Kollegiya tərəfindən vəkillərin sayının artırılması ilə bağlı həyata keçirilən təbirlər, Prezident İlham Əliyevin 2018-ci il 22 fevral tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının ölkə vəkilliyi üçün tarixi əhəmiyyəti, habelə bu Sərəncamdan irəli gələrək yaxın gələcəkdə aztəminatlı əhali qrupunun ödənişsiz hüquqi yardıma çatımlılığında müsbət dəyişikliklərin olacağı barədə məlumat verib.



Görüşdə Vəkillər Kollegiyası ilə GİZ arasında əməkdaşlığın perspektivləri müzakirə olunub. Gələcəkdə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa edilə biləcək əlavə və dəyişikliklərlə bağlı Cəmiyyətin texniki dəstək göstərməsi barədə razılıq əldə olunub.

Bundan başqa, "Azərbaycan Vəkili" jurnalı və onun maliyyələşdirilməsi, o cümlədən gələn il Azərbaycan vəkilliyinin 100 illiyi ilə bağlı keçiriləcək tədbirlər və bu tədbirlərin təşkili barədə müzakirə aparılıb. Həmçinin jurnalın GİZ-in maliyyə dəstəyi ilə nəşr edilməsi, habelə Azərbaycan vəkilliyinin 100 illiyi ilə bağlı tədbirlərin təşkili prosesində qarşılıqlı əməkdaşlıq məsələləri razılaşdırılıb.

**AZƏRTAC**

# Altı ayda Energetika Nazirliyində 868 müraciətə baxılıb

**Cari ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikasının Energetika Nazirliyinə və nazirliyin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyinə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik enerjisi və təbii qazla təchizatı ilə bağlı 868 ərizə və müraciət daxil olub.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, bunlardan 149 müraciət "Qaynar xətt" ("Elektron müraciət"), 657 müraciət isə poçt vasitəsilə qəbul edilib. Nazirliyin telefon nömrələrinə 37, teleqramla isə 25 şəxs müraciət edib.

Vətəndaşlar tərəfindən edilən müraciətlərin 40,2 faizi elektrik enerjisi təchizatı ilə əlaqədar məsələləri əhatə edib. Belə ki, 349 müraciətdən 61-i elektrik sayğaclarının quraşdırılması və ödənişlərin hesablanmasında borcun yaranması, 64-ü enerji təchizatı şəbəkəsinə qoşulmaya görə texniki şərtlərin verilməsi, 224-ü isə elektrik enerjisinin verilişi ilə bağlı olub.

Bu ilin 6 ayı üzrə nazirlikdə qaz təchizatı ilə bağlı 283 müraciət qeydə alınıb. Bunlardan 37-si qaz xəttinə qoşulma, 71-i sayğaclarının quraşdırılması və izafi borcun yaranması, 175-i isə təbi qazın verilişinə dair olub. Digər məzmunlu məsələlərlə bağlı isə 236 vətəndaş müraciət edib.

İstehlakçılar tərəfindən nazirliyə daxil olan bütün müraciətlər müəyyən olunmuş qaydada nazirlik tərəfindən araşdırılıb, mahiyyəti üzrə təhlil edilərək müvafiq tədbirlər görülməsi üçün aidiyyəti qurumlara göndərilib və icra olunub. 31 müraciət icraya nəzarət çərçivəsində nazirliyin nümayəndələrinin iştirakı ilə yerində yoxlanılıb və cavablandırılıb. Bütün ərizə və müraciətlər "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa, elektrik enerjisindən və qazdan istifadə qaydalarına, elektroenergetika və qaz təchizatı haqqında mövcud qanunvericiliyə uyğun olaraq icra edilib.

**AZƏRTAC**

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Microsoft" şirkəti ilə 3 illik saziş imzalayıb

**Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NYRTN) "Microsoft" şirkəti ilə dövlət strukturları üçün proqram təminatı lisenziyalarının alınması haqqında 3 illik saziş imzalayıb.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər arasında əldə olunan razılığa əsasən, dövlət qulluqçularının kompüterlərini (20,000 lisenziya) "Microsoft" proqram təminatı lisenziyaları (Windows Pro, Office 365 ProPlus, Core CAL) ilə təmin etmək, habelə ali təhsil müəssisələrini akademik güzəşt ilə lisenziyalaşdırmaq (10,000 lisenziya) nəzərdə tutulub.

Bundan əlavə, sazişin bağlanması zamanı "Microsoft" şirkəti tərəfindən təqdim olunan "Tələbə üstünlükləri" proqramından da yararlanaraq Azərbaycan Respublikasının bütün ali təhsil müəssisələrinin tələbələri üçün (150.000 nəfər) əlavə olaraq pulsuz "Microsoft Windows" və "Microsoft Office" proqram təminatı əldə olunub.

Sözügedən sazişə əsasən, NRYTN və "Microsoft" dövlət strukturlarında proqram təminatının lisenziyalaşdırılması ilə bağlı əməkdaşlığın ikinci mərhələsini reallaşdıracaq. Belə ki, 2011-ci ildə artıq 10000 kompüter dövlət qurumlarının icra aparatlarında istifadə olunmaq üçün lisenziyalaşdırılaraq (Windows, Office ProPlus və Core CAL) istifadəyə verilib.

"İDC (İnternational Data Corporation)" şirkətinin 2017-ci il üzrə araşdırmasına əsasən, Azərbaycan üzrə lisenziyasız proqram təminatından istifadədə əvvəlki illərə nisbətən azalma müşahidə olunub. Tələb olunan lisenziyaların əksər hissəsi isə, məhz "Microsoft" (Windows və Office) şirkətinin məhsullarıdır.

Adıçəkilən saziş nəticəsində əldə olunan lisenziyalı proqram təminatının dövlət qulluqçuları tərəfindən istifadə olunması informasiya sistemlərinin və şəxsi məlumatların beynəlxalq kiberhücumlardan qorunma səviyyəsini artıracaq. Təhsil müəssisələrinin lisenziyalaşdırılması isə tələbə və müəllimlərə lisenziyalı proqram təminatından istifadə etməyə imkan verəcək. Bu da öz növbəsində, özəl sektorda və ümumilikdə ölkə üzrə lisenziyasız proqram təminatından istifadə səviyyəsinin 3 il ərzində kəskin azalmasına gətirib çıxaracaq.

Sazişin əsas məqsədi bu sahədə xərclərə qənaət etmək, ölkənin əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı reytinqlərdə mövqeyini yaxşılaşdırmaq, innovasiya ekosistemini inkişaf etdirmək, bu sahəyə xarici investisiyalar cəlb etmək, habelə ölkədə elektron xidmətlərdən istifadə sayını artırmaqdır.

Qeyd edək ki, lisenziyasız proqram təminatının çox olduğu ölkələrdə kiberhücum riski yüksəlir, kompüter elmləri sahəsində təhsilin səviyyəsi aşağı düşür, yüksək texnoloji iş yerləri azalır və intellektual mülkiyyət hüquqlarının qorunmasında çətinlik yaranır.

Mülkiyyət hüquqlarının qorunması ölkənin Rəqabətqabiliyyətlilik İndeksinin (Davos Ümumdünya İqtisadi Forumu) əsas komponentlərindən biridir.

Bundan əlavə, Dünya Bankının "Ease of Doing Business" indeksi üzrə Azərbaycanın mövqeyinə müsbət təsir edəcək saziş, sahibkarlığın yaxşılaşdırılması üzrə görülən institusional tədbirlərə və ölkədə investisiya mühitinə də təkan verəcək.

Layihənin operatoru qismində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində fəaliyyət göstərən "AzİnTelecom" MMC çıxış edəcək.

**AZƏRTAC**

# Bakının ən böyük kəndi

## *Jurnalist-publisist Kamal Novruzun "Qədim Məştağa" kitabı işıq üzü görüb*




İndi intellektual yarışlar, breyn-rinqlər tez-tez təşkil olunur. Xüsusən də telekanallarda, tədris ocaqlarında. Adları müxtəlif olsa da, məramları, təxminən eyni olur: böyüməkdə olan nəslin intellektini inkişaf etdirmək, məlumatlılıq səviyyəsini yüksəltmək. Rəngarəng mövzuları əhatə edən belə yarışmalarda iştirakçılara insan fəaliyyətinin bütün növlərinə, tarixə, coğrafiyaya və digər bilik sahələrinə aid suallar təqdim olunur. Sırf bir sahəyə həsr olunan bilik yarışları da var. Bu baxımdan, hər həftənin bazar günü AzTV-də yayımlanan "Azərbaycanı tanıyaq və tanıdaq" adlı yarışmanı qeyd etmək olar. Oyunun diqqətəlayiq cəhəti məhz məktəblilərin vətənpərvərlik tərbiyəsinə hədəflənməsidir. Aksiomdur ki, güclü vətənpərvər olmaq üçün öncə vətəni yaxşı tanımaq gərəkdir. Müntəzəm izlədiyim həmin yarışda bir dəfə belə bir sual səsləndirildi: "Bakının ən böyük kəndi hansıdır?" İştirakçılardan sualı düzgün cavablandıra bilən olmadı. Uzun müddət Bakıda yaşasam, onu yaxşı tanıdığımı güman etsəm də, sualın cavabını mən də bilmirdim. Apardığım araşdırmalardan da bir qənaət hasil edə bilmədim. Yalnız bu günlərdə, keçmiş iş yoldaşım, son illər müxtəlif dini, elmi-populyar kitabların tərtibi və çapı ilə məşğul olan Kamal Novruzun ikinci nəşri ötən ilin sonlarında çapdan çıxmış "Qədim Məştağa" kitabını mənə verəndən sonra sualın cavabını öyrənə bildim. Demə, bu, Məştağa kəndi imiş. Amma böyük zəhmətin, ciddi tədqiqatın məhsulu olaraq hasilə gələn 580 səhifəlik kitabdan öyrəndiyim təkcə bu olmadı. Maştağanın tarixi, burada keçmişdən məskən salmış nəsillər (tayfalar), əhalisinin məşğuliyyəti, kəndin tarixən formalaşmış məhəllələri, tanınmış simaları, təlim-tərbiyə ənənələri və s. haqqında da mükəmməl məlumat və təsəvvür aldım.

Kitab ilk baxışda ixtisasca jurnalist olan müəllifin gördüklərini, bildiklərini, eşitdiklərini publisistik dillə qələmə alması təsiri bağışlasa da əslində belə deyil. K.Novruz bir çox məsələlərə yanaşmada əsl tədqiqatçı səriştəsi nümayiş etdirərək kənd haqqındakı mövcud ədəbiyyatla, sənədlərlə dərindən tanış olmuş, onları yeri gəldikcə təhlilə çəkərək öz münasibətini bildirmişdir. K.Novruzun doğma kəndi Məştağaya sonsuz sevgisi də elə kitabın ilk səhifələrindən hiss olunur. Müəllif nədən söz açırsa-açsın, orada yurd təəssübü ön planda görünür. Kitab bütövlükdə Məştağanın salnaməsi kimi dəyər daşısa da, onun bu qədim kəndi tanıtmaq hədəfi də hiss olunandır və bunu əsərin mündəricatı və strukturu da aydın göstərməkdədir. K.Novruz bütün dini məkanlar üçün keçərli saymaq mümkün olan sübh azanını, namazdan sonra yavaş-yavaş canlanan kənd həyatını ön söz yerində təsvir etdikdən sonra kəndin tarixinə qısa ekskurs edir. Faktlara söykənərək göstərir ki, Məştağa Bakı şəhəri yaxınlığında və şəhər ətrafında yerləşən kəndlər içərisində həm ərazisinə, həm də əhalisinin sayına görə ən böyüyüdür. Müəllif bu qənaətini müxtəlif mənbələrdən gətirdiyi faktlar, fikirlərlə möhkəmləndirir. Kamal Novruz "Məştağa" sözünün etimologiyasını da araşdıraraq mənasına aydınlıq gətirir. İndiyədək bu ada verilən şərhləri diqqətdən keçirən müəllif bu qənaətə gəlir ki, Məştağa sözü Azərbaycan türklərinin soykökünün formalaşmasında böyük rol oynamış massagetlərin adı ilə bağlıdır. Onun sözlərinə görə, massagetlər müxtəlif tarixi mənbələrdə *maskut, malaxaun, məsqət, masqat* adlandırılır. Görünür, kəndin adı da buradan götürülmüş, zaman-zaman deformasiyaya uğrayaraq Maştağa (Məştağa) kimi formalaşmışdır.

Qədim Maştağanın müxtəsər coğrafiyası da yeni nəşrdə öz əksini tapıb. Bu məqsədlə oxucuları yüz il bundan qabaqkı qədim Məştağaya səyahətə aparan K.Novruz müxtəlif coğrafi cəhətlərdən baxış bucağı altında yanaşma ilə onları kəndin coğrafiyası ilə tanış edir. Bunun davamı olaraq Məştağanın məhəllələri haqqında söz açılır. Müəllif kəndin əsas məhəllələri olan *Keçəl məhəlləsi, Xunxar məhəlləsi, Seyidlər məhəlləsinin* hər biri, həmin məhəllələri təmsil edən etnik qruplar, bu qrupların bir nümayəndəsi kimi seyidlərin Məştağaya gəlməsi və burada məskunlaşması, məhəllələrin tanınmış simalarından ətraflı bəhs edir. Məştağanın yolları, bağları, əkin yerləri, meydanları, ovdanları, bulaqları, quyuları, hamam və dəyirmanları haqqında tarixi-təsviri materiallara da kitabda geniş yer ayrılıb. K.Novruz onların hər birindən yurdsevər bir tədqiqatçı kimi söz açır.

Bakı kəndləri arasında öz dindarlığı ilə seçilən Məştağada, kitabda göstərildiyinə görə, 36 məscid, 4 pir olub. Müəllif məscidlərin sayını mübahisəli hesab etdiyindən onlardan daha böyükləri və tanınanları haqqında məlumat verir. Hər məscid barədə verilən məlumatda onun tikilmə tarixi, məscidi tikdirən və burada axundluq edən din xadimləri, hazırkı axundları ilə də oxucular tanış edilir.

Ensiklopedik nəşr təsiri bağışlayan kitabda qədim Məştağa əhalisinin məşğuliyyətinə də toxunulub. Müəllif qeyd edir ki, Məştağa əhalisinin əsas məşğuliyyəti *bağçılıq, əkinçilik və heyvandarlıq* idi. Bunlarla yanaşı kəndin əhalisi arasında zəfərançılıq da geniş yayılmışdı. Vurğulanır ki, ötən əsrin əvvəllərində Azərbaycanda, o cümlədən də Abşeronda ən çox və ən keyfiyyətli zəfəran məhz Məştağada istehsal olunardı. Əhalinin əsas məşğuliyyətlərindən biri də üzümçülük imiş. Kəndin bağlarında 25-dək üzüm növü yetişdirilərmiş. Buna görə də Məştağa həm də öz yüksəkkeyfiyyətli kişmişi ilə tanınırmış.

Kitabda yazılanlardan məlum olur ki, xalqımız arasında populyar olan, sevilən bir çox bayram və mərasimlər qədim Məştağada da təntənə ilə qeyd olunurmuş. K.Novruz bunlardan Novruz, Orucluq, Qurban, Qədr bayramları haqqında ayrıca və geniş söz açır, onların tarixi, keçirilmə qaydaları barədə məlumatları təqdim edir. Qədim Məştağada uşaqların təlim-tərbiyəsinə xüsusi diqqət yetirilirmiş. Bir sıra dini qaydalar, davranış, etiket qaydaları, islam əxlaqının əsasları uşaqlara ailədə aşılanırmış. Uşaqlar məktəb yaşına çatdıqda valideynlər onları məktəbdarlıq edən mollaların yanına göndərərmişlər. Mollaxanada uşaqlara əvvəlcə əlifba - "əbcəd", sonra isə Quran oxumağı öyrədirdilər. Quranı çıxdıqdan sonra molla uşaqlara Sədinin "Gülüstan" kitabından dərs deyərmiş... Bu barədə kitabda verilən geniş məlumatda, habelə, məktəbdarlıqla məşğul olan mollalardan da söz açılır.

Müəllif qeyd edir ki, Məştağa Abşeronda Bakı şəhərindən sonra ən böyük yaşayış məskəni olduğu kimi, burada yetişib ərsəyə gələn alimlər, din xadimləri də başqa kəndlərə nisbətən çoxdur. O, kitabında həmin alim və din xadimlərindən 50-dən çoxu haqqında müxtəsər məlumat verir. Kəndin tanınan, nüfuzlu, yaradıcı şəxsiyyətlərindən bir qismini şairlər təşkil edir. Həmkarımız kitabını yazarkən onları da unutmayıb və ora tanınmış Məştağa şairləri, hazırcavab insanları haqqında geniş araşdırma yazısını da daxil edib. Həm də yaradıcılıqlarından nümunələrlə birlikdə.

Kitabın "Qədim Məştağa sənətkarları və nəqliyyat vasitələri", "Məştağada ləqəblər", "Qədim maştağalılar" "Tarixin yaddaşından" adlı bölmələrində də maraqlı, oxucunun Məştağa haqqında biliklərini, təsəvvürlərini genişləndirən məlumatlar yer alıb. Faktoloji materiallarla zəngin, dərin müşahidə, təhlil və müqayisələr, mövcud ədəbiyyatlara, ciddi tarixi faktlara istinadən yazılmış kitabın dili də öz axıcılığı, rəvan təhkiyəsi ilə diqqəti cəlb edir. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulsa da, fikrimizcə, o, bu istiqamətdə araşdırmalar aparan tədqiqatçılar üçün də qiymətli mənbə ola bilər.

**Yusif ƏLİYEV,**
**Əməkdar jurnalist.**

# "Qala Sığorta" ödənişlərini 10 dəfəyədək artırıb

**Azərbaycan sığorta bazarının ən aktiv iştirakçısı olan "Qala Sığorta" 2018-ci ilin yanvar-iyun ayı üzrə əsas maliyyə göstəricilərini açıqlayıb.**

Şirkətin İctimaiyyətlə Əlaqələr Xidmətindən verilən məlumata görə, operativ məlumatlar əsasında hazırlanmış hesabata əsasən bu ilin ilk 6 ayında "Qala Sığorta" şirkətinin peşəkar satış komandası tərəfindən 7 434 983 manat həcmində sığorta haqqı toplanılıb ki, bu da 2017-ci ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 2 827 909 manat və ya 61,2% çox olub.

Hesabat dövründə yığımlarla yanaşı ödənişlərdə də kəskin artım müşahidə olunub. Belə ki, 2018-ci ilin ötən 6 ayı ərzində şirkət tərəfindən müxtəlif sığorta hadisələri üzrə 687 478 manat sığorta ödənişi verilib. Ötən ilin müvafiq dövründə isə bu göstərici 70 975 manat olub. İllik müqayisədə sığorta ödənişlərinin həcmi 616 503 manat və ya təxminən 9,7 dəfə artım olub.

Qeyd edək ki, verilən sığorta ödənişləri müvafiq qanunvericiliyin tələbinə uyğun olaraq operativ və vaxtında həyata keçirilib. Ümumiyyətlə, göstərilən xidmətlərdə şirkətin biznes strategiyasına əsaslanan müştəri məmnuniyyəti meyarı hər zaman yüksək dəyərləndirilərək prioritet hədəflər sırasında yer alır.

Xatırladaq ki, "Qala Sığorta" şirkəti 30 sentyabr 2015-ci il tarixindən fəaliyyət göstərir. Şirkətin yeganə səhmdarı "AzRe Təkrarsığorta" ASC-dir.

Şirkət müştərilərinə baş ofis və 8 regional nümayəndəlik vasitəsi ilə qanunvericiliklə nəzərdə tutulan qeyri-həyat sığorta sahəsinin 23 növü üzrə, o cümlədən 19 könüllü və 4 icbari sığorta məhsulları üzrə xidmətlər göstərir. ■

TƏKRAR

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİN

## AÇIQ TENDER ELANI

**Tenderin predmeti:**

Lot-1 üzrə "Ammonium nitrat gübrəsinin ($NH_4NO_3$) satınalınması";

Lot-2 üzrə "Ammofos gübrəsinin (N:P 12:52) satınalınması";

Lot-3 üzrə "Karbomid gübrəsinin ($(NH_2)_2CO$ 46%) satınalınması"

Lot-4 üzrə "Kalium sulfat ($K_2$ $SO_4$) və ammonium sulfat ($(NH4)_2SO_4$) gübrələrinin satınalınması"

Tenderin qalibi olmuş iddiaçılar göstərilən mineral gübrələri İnkoterms-2010 DDP şərtilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə təhvil verməlidirlər. Tender iştirakçılarına təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

"Aqrolizinq" ASC qarşısında yerinə yetirilməmiş və ya lazımi səviyyədə yerinə yetirməmiş öhdəliyi olan fiziki və hüquqi şəxslər bu tenderdə iştirak edə bilməzlər.

Maraqlananlar tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs:** *Abdullayeva Vəfa Hikmət qızı*

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi, 12*

**Tel:/Faks:** *425-66-94; mobil: +99451 255-92-40*

**E-mail:** *a.vefa@agrolizing.gov.az*

Tenderin əsas şərtlər toplusu Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda beynəlxalq ticarətdə istifadə edilən dillərin birinə tərcümə olunacaqdır. Aqrokimyəvi maddələrin idxalı və istehsalı üzrə lisenziyası olan fiziki və hüquqi şəxslər əsas şərtlər toplusunu toplusunu Lot-1 üzrə 1000 manat, Lot-2 üzrə 800 manat, Lot-3 və Lot-4 üzrə 500 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürə bilərlər:

*Təşkilat: "Aqrolizinq" ASC*

*VÖEN: 1700382471; H/h: AZ91AİİB38070019443500231102 AZN*

*Kapital Bank Mərkəz filialı*

*Kod: 200026; VÖEN: 9900003611*

*M/h: AZ37NABZ01350100000000001944; S.W.İ.F.T.: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 03 avqust 2018-ci il tarixinə kimi aşağıdakı sənədləri (tender təklifi və 3% bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının vergilər və sosial sığorta ödənişləri üzrə borcunun olmaması barədə müvafiq vergi orqanları və DSMF tərəfindən təsdiq olunmuş sənəd;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə, rekvizitləri və maddi-texniki bazası barədə məlumat, dövlət qeydiyyatı haqqında şəhadətnamənin, dövlət reyestrindən çıxarışın və nizamnamənin notarial qaydada təsdiq edilmiş surəti.*

Bundan əlavə Tender təklifi və bank təminatı möhürlənmiş bağlı zərflərdə 13 avqust 2018-ci il saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 3% həcmində bank təminatı verilməlidir. Bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır.

Bank təminatını və tender təklifini bağlı zərfdə təqdim etməyən iddiaçıların təklifi etibarsız sayılır.

Bağlı zərflər 14 avqust 2018-ci il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## Azərbaycan Respublikası Cəbrayıl Rayon İcra Hakimiyyəti, Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış 4 saylı qəsəbədə yerləşən aparatın inzibati binalarda cari təmir, 1-11 saylı qəsəbələrdə fəaliyyət göstərən uşaq bağçalarında aparılacaq cari təmir və əsaslı təmir işləri, 3 saylı qəsəbə ərazisində "Bazar" tikintisi və orada təmir-abadlıq işlərinin alınması üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Sənədlər 30 iyul 2018 ci il saat 17.00-a qədər Cəbrayıl Rayon İcra Hakimiyyətinə (Biləsuvar 4 saylı qəsəbəyə) təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifi 31 iyul 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs:** *Nəsirov Tapdıq Oruc oğlu*

**İş telefonu:** *026-384-39-14, 026-384-39-46*

## E L A N

## "Yevlax Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

09 sentyabr 2018-ci il tarixdə saat 11:00-da "Yevlax Nəqliyyat" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:**

1. ASC idarəetmə orqanlarının 2017-ci ilə dair maliyyə - təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. İllik hesabatların təsdiq edilməsi.
3. Təşkilati məsələ. ASC idarəetmə orqanlarının seçilməsi.
4. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinə dair materiallarla tanış olmaq üçün iş günlərində ASC rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Yevlax rayonu, Aran qəsəbəsi, ASC-nin inzibati binası.*

**Əlaqə telfonu:** *055 212 90 00*

**"Yevlax Nəqliyyat" ASC-nin İdarə heyəti.**

## BİLDİRİŞ

**"Respublika" qəzetinin 2 iyun 2018-ci il və 15 iyun 2018-ci il tarixli saylarında Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin dərc olunmuş tender elanında zərflər 7 avqust 2018-ci il saat 12:00-da açılacaqdır. Tender təklifi və bank zəmanəti 6 avqust 2018-ci il saat 17:00-a kimi, digər sənədlər isə 25 iyul 2018-ci il saat 17:00-a kimi qəbul olunur.**

**Tender Komissiyası.**




### ❑ TRAMPLA MERKEL ARASINDA SÖZ DUELİ



Brüsseldə keçirilən NATO sammitinə ABŞ və Almaniya arasındakı gərginlik yüksək həddə çatıb. "APA"nın Türkiyə mətbuatına istinadən xəbərinə görə, ABŞ prezidenti Donald Trampın "Almaniya Rusiyanın əsiridir" açıqlamasına Almaniya kansleri Angela Merkel və xarici işlər naziri Heyko Maas sərt reaksiya veriblər.

Almaniyanın Rusiyadan enerji asılılığının artdığına və buna görə də Rusiyaya böyük məbləğdə vəsait ödədiyinə diqqət çəkən Tramp bu səbəbdən Almaniyanın Rusiyanın əsiri halına gəldiyini vurğulayıb.

Məsələ ilə bağlı açıqlama verən Almaniya kansleri Angela Merkel isə cavanlıq illərinin böyük bir hissəsini Şərqi Almaniyada keçirdiyini qeyd edərək deyib: "Almaniyanın bir hissəsi uzun zaman SSRİ tərəfindən idarə olunub. Bu gün müstəqil ölkə olmağımızla qürur duyuram. Heç kimdən asılı olmadan siyasi qərarlar qəbul edir, xarici siyasətimizi həyata keçiririk".

Kansler həmçinin qeyd edib ki, Almaniyanın Rusiyadan aldığı enerji ölkənin 80 faiz yox, 20 faiz ehtiyacını ödəyir.

Almaniyanın xarici işlər naziri Heyko Maas isə öz "Tvitter" hesabından verdiyi açıqlamada "Biz əsir deyilik - nə Rusiyanın, nə də ABŞ-ın", - deyə bildirib.

### ❑ NATO RUSİYANI ÖZ HƏRBİ QÜVVƏLƏRİNİ GÜRCÜSTANDAN ÇIXARMAĞA ÇAĞIRIB



NATO Rusiyanı Gürcüstanın işğal olunmuş bölgələri olan Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıması ilə bağlı qərarından imtina etməyə çağırıb. "APA"nın NATO-nun rəsmi saytına istinadən verdiyi xəbərə görə, bu barədə Brüsseldə NATO-Gürcüstan Komissiyasının toplantısının yekun bəyannaməsində qeyd edilib.

Məlumata görə, sənəddə Gürcüstanın ittifaqla əlaqələrinin unikal miqyası və dərinliyi vurğulanaraq bildirilir ki, Gürcüstan NATO-nun ən yaxın əməliyyat tərəfdaşlarından biridir.

Bəyannamədə qeyd edilir ki, NATO müttəfiqləri bölgədə baş verən insan haqları pozuntularını ciddi şəkildə qınayır və bildirir ki, bu cür addımlar Gürcüstanın ərazi bütövlüyü və suverenliyini pozmaqla yanaşı, həm də beynəlxalq hüquq, ATƏT prinsipləri və Rusiyanın beynəlxalq öhdəliklərinə tamamilə ziddir. Bundan əlavə, Rusiya 2008-ci ildə əldə edilmiş atəşkəs razılaşmasına əməl etməyə və hərbi qüvvələrini Gürcüstan ərazisindən geri çəkməyə dəvət edilib.

Eyni zamanda, NATO Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində münaqişənin sülh yolu ilə həlli üçün danışıqlarda dəqiq nəticələr əldə etməyin vacibliyini vurğulayıb.

### ❑ NEFT BİR GÜNDƏ 5 DOLLAR UCUZLAŞIB



Donald Trampın dünya iqtisadiyyatına mənfi təsir edəcək və "ticarət müharibəsi" anlamına gələn Çin qərarı neftin son bir ildə ən böyük qiymət itirməsinə səbəb olub. "APA"nın məlumatına görə, "Brent" markalı neftin bir barreli 5 dollara qədər ucuzlaşaraq 74 dollardan da ucuz satılmağa başlayıb. Bu markadan olan neft hazırda 74,62 dollardan satılır. Qərbi Texas nefti isə 3 dollar dəyər itirərək hazırda 70,72 dollardan təklif olunur.

Verilən xəbərə görə, ABŞ-da Çin məhsullarına 30 avqustdan etibarən 200 milyard dollarlıq əlavə vergi qoyulacaq. İki dünya nəhəngi arasında başlayan "ticarət müharibəsi" neftin qiymətlərini bahalaşdıracaq səbəbləri kölgədə qoyur. Belə ki, ABŞ-da xam neft ehtiyatlarında təxminən iki ilin ən böyük azalması qeydə alınıb.

Ehtiyatların azalması, İranın neft ixracına sanksiyaların qoyulması, bir neçə neft ölkəsinin istehsal müəssisələrində yaranan problemlər qiymətlərin kəskin ucuzlaşmasının qarşısını ala bilməyib. Sərmayədarlar Çinin də ABŞ məhsullarına əlavə vergi qoyacağını düşünür.

Məlumat üçün qeyd edək ki, 5 min məhsulun olduğu siyahıda dəniz məhsullarından idman əlcəyinə, təbii və kimyəvi minerallardan meyvə-tərəvəzə, tütün məmulatlarından avtomobil təkərlərinə qədər bir çox çeşiddə mal yer alır. ABŞ ictimaiyyətinə təqdim olunan siyahı 60 gün ərzində son şəklini alacaq. Çin rəhbərliyi isə qarşılıqlı olaraq gömrük tariflərinin yüksəldilməsinin iki ölkə arasındakı ticarətə zərər verəcəyini bildirib.

### ❑ RƏSMİ KREML TRAMPIN BƏYANATINA MÜNASİBƏT BİLDİRİB



Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ prezidenti Donald Trampın NATO sammiti çərçivəsində Avropa - Rusiya münasibətləri haqda verdiyi bəyanata münasibət bildirib. "APA"nın məlumatına görə, Dmitri Peskov bu bəyanatın qarşıdan gələn Putin-Tramp danışıqlarını çətinləşdirə bilməyəcəyini vurğulayıb.

Dmitri Peskov açıqlamasında deyib: "Onsuz da bu danışıqlar çətin olacaq. Gündəmdə olan Rusiya ilə ABŞ arasında fikir ayrılıqlarının həcmini bilirsiniz. Ona görə də çətin ki, nəsə bu danışıqları yumşaltsın".

Eyni zamanda, kreml sözçüsü Donald Trampın "Şimal axını-2" qaz kəməri ilə bağlı səsləndirdiyi bəyanatı da şərh edib. O, bu bəyanatın haqsız rəqabətin təzahürü olduğunu bildirib. "Bu, Avropanı Rusiyanın kəmər qazından baha olan Amerikanın slans qazını almağa məcbur etməyə cəhddir", - deyə Dmitri Peskov əlavə edib.

Qeyd edək ki, Donald Tramp NATO-nun baş katibi Yens Stoltenberqlə görüşündə "Şimal axını-2" qaz kəməri layihəsini həyata keçirən Almaniyanın Rusiyanın girovu olduğunu, Rusiyanın Almaniyaya nəzarət etdiyini söyləyib.

### ❑ NİKARAQUADA BAŞ VERƏN İĞTİŞAŞLARDA ÖLƏNLƏRİN SAYI 351 NƏFƏRƏ ÇATIB



Nikaraquada aprel ayından davam edən iğtişaşlar nəticəsində ölənlərin sayı 351 nəfərə çatıb. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə "Nikaraqua İnsan Haqları Assosiasiyası" məlumat yayıb. Verilən xəbərə görə, təkcə son səkkiz gün ərzində ölkədə keçirilən müxtəlif etiraz aksiyalarında 40 nəfər həyatını itirib, 2 mindən çox insan isə yaralanıb.

"Prensa" portalının xəbərinə görə, iğtişaşlarda 306 mülki şəxs, 28 hökumətyönlü silahlı dəstə üzvü, 16 polis əməkdaşı və 1 hərbçi həyatını itirib.

Xatırladaq ki, Nikaraquada etiraz aksiyaları aprelin 18-dən etibarən davam edir. Etirazçılar sosial sığorta fondlarına köçürmələrin məbləğinin artırılmasını nəzərdə tutan islahata qarşı çıxış edirlər. Prezident Daniel Orteqa islahatı ləğv etsə də, ölkədə iğtişaşlar davam etməkdədir.

### ❑ BÖYÜK BRİTANİYA RUSİYANI YENİDƏN İTTİHAM EDİB



"Rusiya Eymsberi şəhərində Böyük Britaniya vətəndaşının ölümü ilə nəticələnən hücum həyata keçirib". "APA"nın "Röyters" agentliyinə istinadən verdiyi xəbərə görə, bunu Böyük Britaniyanın müdafiə naziri Qevin Uilyamson bəyan edib.

Böyük Britaniyanın müdafiə naziri deyib: "Həqiqət ondan ibarətdir ki, Böyük Britaniya ərazisində törədilən hücumun arxasında məhz Rusiya durur. Və bu hücum Böyük Britaniya vətəndaşının ölümü ilə nəticələnib. Əminəm ki, dünya ictimaiyyəti birləşərək bu hərəkətləri pisləyəcək".

Qeyd edək ki, iyunun 30-da zəhərlənmə əlamətləri ilə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən 44 yaşlı Don Storces ötən gün xəstəxanada vəfat edib. Onunla birgə sinir iflicedici maddədən zəhərlənən 45 yaşlı Çarlz Roulinin vəziyyəti kritikdir. Hər iki şəxsin "Noviçok'' maddəsindən zəhərləndiyi bildirilir.

Xatırladaq ki, martın 4-də Rusiya Baş Kəşfiyyat İdarəsinin keçmiş polkovniki Sergey Skripal və qızı Yuliya Böyük Britaniyanın Eymsberi şəhərinin yaxınlığında yerləşən Solsberidə küçədə huşsuz vəziyyətdə tapılıb. Britaniya hökuməti hər iki şəxsin "Noviçok" adlı kimyəvi maddə ilə zəhərləndiyini bildirib.

### ❑ YAPONİYADA LEYSAN YAĞIŞLARI NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI ARTIB



Yaponiyada leysan yağışlar, torpaq sürüşmələri və daşqınlar nəticəsində ölənlərin sayı 199 nəfərə çatıb. "APA"nın məlumatına görə, bu barədə "Frans-Press" agentliyi Yaponiya hökumətinin açıqlamasına istinadən xəbər verib.

Məlumat üçün qeyd edək ki, bundan əvvəl təbii fəlakət nəticəsində 179 nəfərin öldüyü bildirilirdi.

Yaponiyada leysan yağışlar ötən həftənin ortalarından "Prapirun" qasırğasının təsiri nəticəsində meydana gəlib. Ölkənin bir sıra bölgəsinə qısa müddət ərzində 1000 mm-dən çox yağıntı düşüb. Leysan yağışlar çayların məcrasından çıxması və torpaq sürüşmələrinə səbəb olub.

Qeyd edək ki, bu, daşqınlar nəticəsində ölüm hallarına görə Yaponiya tarixində ikinci ən irimiqyaslı təbii fəlakətdir. 1953-cü ildə Küsü adasında baş verən daşqınlar nəticəsində 759 nəfər ölmüş, 450 min insan evsiz qalmışdır. ■

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı

# SATINALMANI ELAN EDİR

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun server və şəbəkə avadanlığına illik texniki dəstək xidmətinin satın alınması ilə bağlı Xidmət təkliflərinin cəlb olunması.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları http://www.mcgf.az ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Satınalma üzrə prosedurlar **14 avqust 2018-ci il tarixində saat 15.00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidir:**

*-Satınalmada iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-Təklif;*

*-Təklifin qiymətinin 1 faizi həcmində təminat (bank qarantiyası);*

*-iddiaçının hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN) notariat qaydasında təsdiq edilmiş surətləri, ƏDV qeydiyyatının olub-olmamasını müəyyən etməyə imkan verən sənədlərin surətləri;*

*-iddiaçının iş təcrübəsini təsdiq edən sənədlərin surətləri;*

*-Satınalma təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*

*-iddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən arayışlar);*

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidir:**

*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*

*-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*

*-tender prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Xidmət təklifləri sorğusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinin 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**Xidmətin icra müddəti:** 12 aydır. Dəstək xidmətləri 24/7 vaxt rejimində Sifarişçinin inzibati binasında və Sifarişçinin Ehtiyat Mərkəzində göstəriləcəkdir.

Xidmət təklifləri sorğusu Azərbaycan dilində tərtib olunmuşdur.

Satınalmada **iştirak haqqı 50 manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra tenderin Xidmət təklifləri sorğusu malgöndərənlərə təqdim ediləcəkdir:

**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**
**Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 40**
**VÖEN: 1403502281**
**H/h: AZ57NABZ01360450000000005944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**VÖEN: 9900071001**
**Kod: 501004**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.İ.F.T bik: NABZAZ2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Satınalma üzrə ilkin sənədlər **02 avqust 2018-ci il** tarixinədək, təklif zərfləri və təklifin təminatı isə **13 avqust 2018-ci il** tarixinədək qəbul ediləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 133), Faks: (+99412) 598-11-77.

**Satınalmalar Komissiyası.**

## YENİ İİV QRANTI ÜÇÜN LAYİHƏ TƏKLİFİ (2018-2021-ci İLLƏR)

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Layihə Əlaqələndirmə Bürosu (LƏB) yerli qeyri-hökumət təşkilatlarını Qlobal Fondun Yeni İİV qrantı çərçivəsində iyul 2018-iyun 2021-ci illəri əhatə edən İİV/QİÇS qrantı müsabiqəsində iştirak etməyə dəvət edir. Qlobal Fondun əsas məqsədi bütün dünyada İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə ən yaxşı mübarizə fəaliyyətləri üçün əlavə resursları cəlb etmək və bu məqsəd istiqamitində ən mühüm səyləri dəstəkləməkdir.

"İİV/QİÇS epidemiyasına cavab tədbirlərinin gücləndirilməsi" Layihəsi Qlobal Fond tərəfindən maliyyələşən və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən icra olunan layihədir. Səhiyyə Nazirliyinin Layihə Əlaqələndirmə Bürosunun vəzifəsi əhalinin yüksək risk qrupları arasında zərərin azaldılması layihələrinin icrasından ibarətdir. Layihə təklifi mülki sektorda aşağıdakı bir və ya bir neçə fəaliyyətləri əhatə etməlidir:

1. Qadın inyeksion narkotik istifadəçiləri (İNİ) də daxil olmaqla, bütün İNİ-lər və onların partnyorları üçün zərərin azaldılması proqramları
2. Qadın Seks İşçiləri (Sİ) və onların müştəriləri üçün ZA/İİV-in profilaktika proqramları
3. Kişilərlə Cinsi əlaqədə olan kişilər (KSK) və transgender insanlar üçün ZA/İİV-in profilaktika proqramları

Layihə təklifi paketi elektron formada e-mail vasitəsilə LƏB-in (projects@gfatm.az) elektron ünvanına və çap formada Bakı şəhəri T.Əliyarbəyov küçəsi 3, (2-ci mərtəbə) ünvanına 27 iyul 2018-ci il **tarixi iş gününün sonuna** qədər təqdim edilməlidir.

Layihə Təklifi paketinə (Azərbaycan dilində, 12 Arial şrifti ilə 4 səhifədən çox olmamaq şərti ilə) daxil olmalıdır:

**1. Layihə Təklifi**

- Layihə Təklifinin adı
- Əsas məqsəd
- Təklif olunan fəaliyyətlər üçün təfsilatlı plana daxil edilməlidir:
  - Hədəf qruplar
  - Coğrafi ərazi
  - Əhatə
  - Autriç işçilərin sayı
  - Gözlənilən nəticələr/hədəflər
- Büdcə

- Administrativ xərclər (məs: ofisin icarə haqqı, dəftərxana xərcləri, kommunikasiya xərcləri, bank kommisiyası və s.) cəmi büdcənin 5%-dən çox olmamalıdır, digər məbləğ isə xidmətlərə/müqavilələrə sərf edilməlidir.

**2. Təşkilat haqqında məlumat**

- Təşkilatın adı və təsis edilmə vaxtı
- Təşkilatın əvvəlki təcrübəsi (cəlb olunduqları layihələrin siyahısı və əməkdaşlıq etdikləri təşkilatlar)

**Note: Ətraflı məlumatı** www.gfatm.az internet səhifəsində əldə etmək olar.

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

# BİLDİRİŞ

Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, dəftərxana ləvazimatları, təsərrüfat malları, yuyucu maddələr, hesablama texnikası və avadanlıqlarına göstərilən texniki xidmət üzrə malların, xidmətlərin satınalınması üçün kotirovka sorğusu keçirir. Kotirovka sorğusu müsabiqəsində iştirak etmək üçün sənədlər 20 iyul 2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar 431 87 03 nömrəli telefonla əlaqə saxlaya bilər.

**Tender Komissiyası.**

## Açıq tenderin müddətinin uzadılması barədə

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin tabeliyində "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 05 iyun 2018-ci il tarixində elan edilmiş Mərkəzin balansında olan 37 ədəd Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyasına (AZPOS) şəbəkə üzərindən VPN (Virtual Private Network) provayder xidmətlərinin göstərilməsinin satın alınması üzrə açıq tenderin müddəti 10 (on) bank günü uzadılmışdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ilkin sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 26 iyul 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 06 avqust 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklifləri 07 avqust 2018-ci il tarixində (saat 15.00-da) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanında açılacaqdır.

## Mənəvi Dəyərlərin Təbliği Fondu loqo müsabiqəsi elan edir

Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycan Respublikası Prezidentinin 10 oktyabr 2017-ci il tarixli, 1624 saylı Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmışdır. Fondun əsas fəaliyyət istiqamətləri mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi, bu sahədə sosial layihələrin reallaşdırılması, dövlət-din münasibətləri sahəsində maarifləndirmə işinin təşkilinə yönəlmişdir. Bununla əlaqədar olaraq Fondun loqosunun müəyyən edilməsi məqsədi ilə müsabiqə elan edilir.

**Müsabiqənin şərtləri:**

**1.** Müsabiqədə harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı iştirak edə bilər;

**2.** Loqo Azərbaycanda əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlər sisteminin elementlərini, eləcə də multikulturalizm və tolerantlıq simvollarını əks etdirməlidir. Bununla yanaşı, loqoda dövlətçilik, milli kimlik, həmrəylik kimi məqamlar öz əksini tapmalıdır.

**3.** Müsabiqədə yalnız indiyə qədər istifadə edilməyən və hər hansı digər loqotiplərin elementlərini təkrarlamayan nümunələr iştirak edə bilər. Loqo dizaynları müvafiq komissiya tərəfindən qiymətləndirildikdən sonra qalib elan ediləcək.

**4.** Loqonun eskizi A4 formatda kağızda və ya CD disk şəklində Bakı şəhəri, Tbilisi prospekti 35 ünvanına (ASK Plaza, 4-cü mərtəbə), eləcə də PDF formatında *mdtf.press@gmail.com* elektron ünvanına və ya Fondun rəsmi facebook ünvanına təqdim edilməlidir.

**5.** Müsabiqənin qalibinə Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən 300 AZN mükafat təqdim olunacaq (köçürmə yolu ilə).

**6.** Loqo nümunələrinin son təqdim olunma tarixi 25.07.2018-ci il saat 18:00-a qədərdir.

**7.** Müsabiqənin qalibi 02.08.2018-ci il saat 16:00-da Mənəvi Dəyərlərin Təbliği Fondunda elan olunacaq.

## Bakı şəhəri Yasamal Rayonu İcra Hakimiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 lot üzrə keçirilir.**

**Lot-1.** Bakı şəhəri Yasamal rayonu ərazisində vətəndaşlara məxsus Nabat Aşurbəyova, Süleyman Tağızadə, Abdulla Şaiq və Çingiz Mustafayev küçələrinin əhatəsindəki, həmçinin Nəriman Nərimanov prospekti, İsmayılbəy Qutqaşınlı, Bəşir Səfəroğlu və Mirzəağa Əliyev küçələrinin əhatəsindəki yaşayış və qeyri-yaşayış obyektlərinin dövlət ehtiyacları üçün satınalınmasından sonra satınalınmış obyektlərin sökülməsi və ərazinin təmizlənməsi işləri;

**Lot-2.** Bakı şəhəri Yasamal rayonu ərazisində vətəndaşlara məxsus Nabat Aşurbəyova, Süleyman Tağızadə, Abdulla Şaiq və Çingiz Mustafayev küçələrinin əhatəsindəki, Nəriman Nərimanov prospekti, İsmayılbəy Qutqaşınlı, Bəşir Səfəroğlu və Mirzəağa Əliyev küçələrinin əhatəsindəki yaşayış və qeyri-yaşayış obyektlərinin dövlət ehtiyacları üçün satınalınması işlərinin yerinə yetirilməsinə görə

Obyektlərinin ekspertiza və ölçü işləri, qiymətləndirmə və yenidən ekspertiza işləri üçün

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən işlər üzrə tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlanmada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir.

Aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərində təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarna malik olmalıdırlar.

**Tenderdə iştirak etmək istəyənlər**

Lot-1 üzrə 50000.00 AZN;

Lot-2 üzrə 2000.00 AZN məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürüldükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu aşağıdakı ünvandan, Bakı şəhəri Yasamal rayonu Mətbuat pr. 37A (Əlaqələndirici şəxs Qəribova Aygün, telefon: 012-533-05-17) ala bilərlər.

İştirak haqqı bu hesaba köçürülməlidir:

*Bakı Şəhəri Yasamal Rayonu İcra Hakimiyyəti*
*Ünvan: Mətbuat pr. 37A*
*VÖEN: 1300431771*
*H/h: AZ11CTRE00000000000002518431*
*Dövlət Xəzinədarlıq Agentliyi*
*KOD: 210005, VÖEN: 140155571*
*M/h: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə qalmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsinin vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*

*-Son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son 1 (bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 21 avqust 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 27 avqust 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri Yasamal rayonu (ünvan: Mətbuat pr. 37A) Telefon: 012-533-05-17 təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 avqust 2018-ci il saat 11:00-da 311 №-li otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi informasiya və kommunikasiya texnologiyaları məhsullarının, soyuducu və kondisionerlərin satınalınması ilə əlaqədar

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tenderin predmeti:**

İnformasiya və kommunikasiya texnologiyaları məhsullarının, soyuducu və kondisionerlərin satınalınması.

-iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;

-müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;

-iddiaçılar tender üzrə 500 manat iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Qasımova Qönçə, telefon: (012) 538-62-57).

*Adı: Dövlət Statistika Komitəsi*
*Hesab №-si: AZ59CTRE00000000000002238401*
*VÖEN: 1300189411*
*Benefisar (alan) bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*SWİFT BİK: CTREAZ22*
*XHK: 2238401(002353)*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə aidiyyatı orqanlar tərəfindən (vergi orqanı, DSMF) verilmiş arayışlar;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının ixtisasına dair məlumatlar;*

*-məhsulların keyfiyyətinə dair zəmanət.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ikiqat zərflərdə imzalanmış və möhürlənmiş surətdə təqdim etsinlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, məhsulların quraşdırılaraq işlək vəziyyətdə daha qısa müddətdə təhvil verilməsi, peşəkar kadr heyətinin sayı, analoji işlərdə təcrübə.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2018-ci il 01 avqust saat 18:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 2018-ci il 10 avqust 17:00-dək Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanına (əlaqələndirici şəxs Qasımova Qönçə, telefon: (012) 538-62-57) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2018-ci il 13 avqust saat 11:00-da yuxarıda qeyd olunan ünvanda 414-cü otaqda açılacaqdır.

**Tender Komissiyası.**

Səfərova Sədaqət Oktay qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Binəqədi r-nu, Azadlıq pr. 165, mənzil-68).

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Səpnəkəran kənd sakini Teymurov Çingiz Fərman oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 144 A; KOD 80218018) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 15 dekabr 1997-cu il tarixli 91 nömrəli qərarı ilə Maşxan kənd sakini Aslanova Aytəkin Əbdülhüseyn qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 093 A; KOD 80110028) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 15 mart 1998-ci il tarixli 18 nömrəli qərarı ilə Səncərədi kənd sakini Allahverdiyeva Töyfə Şıxi qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 120; KOD 80107018) itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## AMEA Neft-Kimya Prosesləri İnstitutu

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot-1. Elmi-tədqiqat işləri üzrə təcrübə-sənaye sınaqlarının keçirilməsi işləri**

Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə 100 (yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəh., Xocalı pr.30 ünvanından (əlaqələndirici şəxs: Mehriban Paşayeva, tel.: 012 490-13-29) ala bilərlər.

*Bank rekvizitləri:*
*Az 1025, Bakı şəh., Xocalı pr.30*
*VÖEN 2000146301*
*Hesab/H:*
*AZ78CTRE00000000000004137901*
*Dövlət Xəzinədarlıq Agentliyi*
*VÖEN: 1401555071, kod: 210005*
*M/H: AZ41NABZ01360100000000003944*
*SWIFT BIK CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 7 avqust 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə 15 avqust 2018-ci il saat 17:00-da möhürlənmiş ikiqat zərfdə Bakı şəh., Xocalı pr.30 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 avqust 2018-ci il saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Bakı Dövlət Universiteti 2018-ci il üçün aşağıda göstərilən Lot üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 LOT üzrə aparılır**

**LOT-1.** BDU-nun 100 illik yubileyi ilə əlaqədar kitabların, fotoalbomların, buklet, təqvim, proqram və konfrans materiallarının nəşri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetirilməlidi.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: texniki şərtlərin yerinə yetirilməsi, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 1 LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov 23 ünvanda yerləşən Bakı Dövlət Universitetindən ala bilərlər.

**Əlaqələndirici şəxs: Gülnar Ağamoğlan qızı Əliyeva, telefon: (012) 510 - 08 - 23**

**LOT-1 üzrə cəmi - 130 manat**

İddiçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Təşkilat: Bakı Dövlət Universiteti, VÖEN: 1300489621*

*H/H: AZ32AİİB33070019443307872103, Kapital Bank ASC Yasamal filialı, KOD: 200037, VÖEN: 9900003611*

*M/H: AZ37NABZ01350100000000001944, SWİFT: AİİB AZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün ərizə;*

*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- Tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*- Tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*- İddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- İddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (rus və ya ingilis dilində olan təkliflərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir ).

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 13 avqust 2018-ci il tarixədək, tender təklifləri və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 avqust 2018-ci il saat 15:00-dək Bakı Dövlət Universitetinə (Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov 23) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 27 avqust 2018-ci ildə saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin kollektivi AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya, atası**
**MƏMMƏD müəllimin**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının rəhbərliyi və kollektivi teatrın aparıcı səhnə ustası, Əməkdar artist Kazım Abdullayevə, həyat yoldaşı**
**NİNA xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru Tariyel Pənahov rəhbərlik etdiyi kollektiv adından AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya, atası**
**MƏMMƏD İMAN oğlu HÜSEYNOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağının rəhbərliyi və kollektivi AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovaya, atası**
**MƏMMƏD HÜSEYNOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Nəriman CAVADOV

● Çapa imzalanmışdır
12.07.2018